HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

№ 23 (763) ■ 17 iyun 2015 www.vergiler.az Qiymәti: 40 qəp.

# «Bakı-2015» birinci Avropa Oyunlarının açılış mərasimi

## Azərbaycan Prezidenti İlham Əliyev Oyunları açıq elan edib

*İyunun 12-də birinci Avropa Oyunlarının açılış mərasimi keçirilib. Bakı Olimpiya Stadionuna toplaşmış 68 min tamaşaçının iştirakı ilə keçirilən mərasimin təşkilinə 28 ölkədən 300-dən çox yaradıcı heyət və 34 ölkədən 1000 nəfər mütəxəssis cəlb olunub.*



Açılış mərasimi dünya şöhrətli xanəndə Alim Qasımovun ifa etdiyi muğamla başlayıb. Sonra ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayım başlayıb və bununla Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 24 ili əks etdirilib. Sonra stadiona rəqqasələr daxil olub. Rəqqasələrin paltarlarının ətəkləri 16 min kvadratmetr parçadan tikilib. Bu, 13 Olimpiya üzgüçülük hovuzu böyüklükdə parça deməkdir. Hər ətək məxsusi olaraq səhnədəki yerinə görə işlənib. Rəqqasələrin ətəklərinin son yellənişində Azərbaycanın dövlət bayrağının obrazı yaranıb. Səhnədən səmaya fişənglər atılıb. Şeypurçular Dmitri Şostakoviçin «Bayram uvertürası»ndan bir parça səsləndiriblər.

Stadionun VİP tribunasında Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım, «Bakı-2015» ilk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva, Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki əyləşiblər. Oyunların açılış mərasimində iştirak etmək üçün Bakıya gəlmiş mötəbər qonaqlar arasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Rusiya Prezidenti Vladimir Putin, Belarus Prezidenti Aleksandr Lukaşenko, Serbiya Prezidenti Tomislav Nikoliç, Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Monteneqro Prezidenti Filip Vuyanoviç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Mladen İvaniç, Monako Şahzadəsi II Albert, Lüksemburqun Böyük Hersoqu Anri, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili, Qazaxıstanın Baş naziri Kərim Məsimov, Rumıniyanın Baş naziri Viktor Ponta, Bolqarıstanın Baş naziri Boyko Borisov, Səudiyyə Ərəbistanı Krallığının şahzadəsi Abdullah Bin Musaad Bin Əbdüləziz, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax, Milli Olimpiya Komitələri Assosiasiyasının prezidenti şeyx Əhməd əl-Fahad Əl-Sabah, ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri, eləcə də San-Marino, İsveçrə, Böyük Britaniya, Slovakiya, Çexiya, İran, Ukrayna, Oman, Küveyt, Qətər və digər ölkələrin yüksək səviyyəli rəsmi şəxsləri, tanınmış ictimai-siyasi xadimlər, dünya idman ictimaiyyətinin görkəmli nümayəndələri əyləşiblər.

Simfonik orkestrin ifasında Azərbaycanın dövlət himni səsləndirilib.

Sonra Azərbaycan Respublikasının dövlət bayrağı stadiona gətirilib. Stadionda quraşdırılan elektron tablolarda Azərbaycanı qarış-qarış dolaşmış məşəlin səyahət marşrutu nümayiş etdirilib. Son məşəlçi - iki dəfə paralimpiya oyunları çempionu, ikiqat dünya çempionu, beşqat Avropa çempionu İlham Zəkiyev Jan Sibeliusun «5-ci Simfoniya»sının sədaları altında birinci Avropa Oyunlarının məşəlini stadiona gətirib. Sonra dahi şair Nizami Gəncəvinin əsərləri əsasında yaradılmış səhnə nümayiş etdirilib.

Stadionun mərkəzinə bolluq, oyanış, sevgi, uğur mücəssəməsi olan və Azərbaycanı rəmzləşdirən nəhəng bir nar gətirilib. Nar paralanıb və dənələri - qırmızı rəngli yüzlərlə şar tribunaların üzərində uçmağa başlayaraq ecazkar mənzərə yaradıb.

Sonra komandaların paradı başlayıb. Mərasim 50 təbilçinin çaldığı gurultulu təbil sədaları ilə müşayiət olunub. İdmançıların keçidini ev sahibi - Azərbaycan atletləri tamamlayıblar. Ölkəmiz Oyunlarda 291 idmançı ilə təmsil olunur. Onların keçidi Mənsum İbrahimovun ifasında «Qarabağ şikəstəsi» ilə müşayiət olunub. Üçrəngli bayrağımızı cüdo üzrə Avropa çempionu Elmar Qasımov aparıb. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva idmançılarımızı hərarətlə salamlayıblar.

Daha sonra bayraqların rəqsi başlayıb. Aaron Koplendin «Adi adam üçün şeypur» əsərindən musiqi parçası ilə başlanan 50 bayrağın rəqsi Natiq Şirinovla 50 nağaraçının ifasında zərb alətlərinin sədası altında davam edib. Dünya şöhrətli müğənni Ledi Qaqanın ifası açılış mərasiminin vəd edilən sürprizlərindən biri olub. O, piano arxasında əyləşərək «Imagine» («Xəyal et») mahnısını ifa edib.

Stadiona Avropa Olimpiya Komitəsinin bayrağı gətirilib və Azərbaycan bayrağı ilə yanaşı ucaldılıb.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki və Azərbaycanın birinci xanımı, «Bakı-2015» Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva səhnəyə gəliblər. İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva çıxış edib. Birinci Avropa Oyunlarının açılışı münasibətilə bütün Azərbaycan xalqını səmimi qəlbdən təbrik edən Mehriban xanım bu möhtəşəm bayramın müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsi olduğunu diqqətə çatdırıb. Bildirib ki, Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır: «Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır». Müstəqilliyinin 24 yaşı olan Azərbaycanın ötən illər ərzində sürətli inkişaf, irəliləyiş keçdiyini və müasirləşmə yoluna qədəm qoyduğunu xatırladan Mehriban Əliyeva Azərbaycanın iqtisadi sabitliyi və davamlı inkişafı bu cür böyük idman tədbirini keçirməyə imkanı yaratdığını xatırladıb.

Sonra Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki çıxış edib. Bildirib ki, tədbir Avropa Olimpiya Komitəsinin tarixində ən fərəhləndirici məqamdır: «Bu axşam biz dünyanın qitə Oyunlarına çatışmayan beşinci halqanı əlavə edirik».

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci Avropa Oyunlarını açıq elan edib.

Stadionun ətrafında atəşfəşanlıq başlayıb. Xalq artisti Alim Qasımovun ifasında müsiqi səsləndirilib və Azərbaycanın tarixi keçmişi və milli rəmzlərinin kompozisiyası əsasında möhtəşəm səhnə nümayiş etdirilib. Birinci Avropa Oyunlarının məşəlinin alovlanması ilə açılış mərasimi başa çatıb.

## rəsmi xronika

### Olimpiya Ailəsinin üzvləri üçün qəbul

İyunun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı, «Bakı-2015» birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın adından birinci Avropa Oyunları ilə bağlı Olimpiya Ailəsinin üzvləri üçün qəbul təşkil edilib. Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri qəbulda iştirak ediblər.

Avropa Olimpiya Komitəsinin prezidenti Patrik Hikki Komitənin yüksək səviyyəli nümayəndələrini Prezident İlham Əliyevə təqdim edib.

Qəbulda iştirak edən qonaqların hər biri ilk Avropa Oyunlarının möhtəşəm açılış mərasiminin xoş təəssüratları ilə yaşayır. Ümumilikdə, «Bakı-2015» birinci Avropa Oyunları ilə bağlı ölkəmizdə görülən işlər beynəlxalq idman qurumları, tanınmış idman ekspertləri və nüfuzlu kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir. Birinci Avropa Oyunlarında beynəlxalq idman ictimaiyyətinin tanınmış simalarının iştirakı isə bu oyunlara dünyada olan marağı bir daha aydın göstərir. Qitənin mötəbər idman tədbirini keçirməklə Azərbaycan həm də növbəti Avropa Oyunlarının standartlarını müəyyən etmək kimi şərəfli bir missiyasını yerinə yetirir.

Dövlətimizin başçısı mərasimdə çıxış edib.

### Prezident İlham Əliyev BOK-un rəhbəri ilə görüşüb

İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Beynəlxalq Olimpiya Komitəsinin (BOK) prezidenti Tomas Bax ilə görüşüb. Görüşdə birinci Avropa Oyunları barədə ətraflı fikir mübadiləsi aparılıb.

Tomas Bax birinci Avropa Oyunlarının ilk günlərində maraqlı yarışların olduğunu deyib. O, «Bakı-2015» birinci Avropa Oyunlarının açılış mərasiminin çox təntənəli keçdiyini vurğulayıb.

Prezident İlham Əliyev Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın birinci Avropa Oyunlarına hərtərəfli dəstəyini xüsusi qeyd edərək bu amilin Oyunların əhəmiyyətini daha da artırdığını deyib. Dövlətimizin başçısı birinci Avropa Oyunlarının ilk günündə Azərbaycan idmançılarının bir neçə medal qazanmasının önəmini qeyd edib.

Görüşdə Azərbaycan Milli Olimpiya Komitəsi ilə Beynəlxalq Olimpiya Komitəsi arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirilib, ölkəmizin idman sahəsində beynəlxalq əməkdaşlığa mühüm töhfələr verdiyi qeyd olunub. Mötəbər beynəlxalq idman yarışlarının Azərbaycanda keçirilməsinin bunun yaxşı nümunəsi olduğu vurğulanıb.

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüş

*İyunun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev birinci Avropa Oyunlarının rəsmi açılış mərasimində iştirak etmək üçün ölkəmizə gələn Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb.*



Dövlətimizin başçısı İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı hakim Ədalət və İnkişaf Partiyasının parlament seçkilərində qələbəsi münasibətilə şəxsən təbrik edib. Görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi, energetika, nəqliyyat və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı. Əlaqələrimizin bundan sonra da bütün sahələrdə daha da genişlənəcəyinə əminlik ifadə olunub.

Söhbət zamanı «Bakı-2015» birinci Avropa Oyunlarının əhəmiyyəti vurğulandı. Prezident İlham Əliyev Türkiyə idmançılarına uğurlar arzuladı. Bu tədbirin ölkələr və xalqlar arasında əməkdaşlığın genişlənməsi işinə töhfə verdiyi qeyd edilib. Dövlət başçıları ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apardılar.

# Rusiya Prezidenti Azərbaycanda olub

*İyunun 13-də Azərbaycan Prezidenti İlham Əliyev birinci Avropa Oyunlarının açılış mərasimində iştirak etmiş Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə görüşüb.*



Prezident İlham Əliyev Rusiyanın milli bayramı münasibətilə Vladimir Putini və Rusiya xalqını təbrik edib. Dövlətimizin başçısı bildirib ki, ölkələrimiz arasında münasibətlər çox müsbət və dinamik inkişaf edir və bu əlaqələr ildən-ilə daha da yüksəlir. Bütün istiqamətlərdə fəal dialoq aparılır, parlamentlərarası əlaqələr möhkəmlənir, iqtisadi sahədə yaxşı nəticələr mövcuddur.

Rusiya Prezidenti Vladimir Putin mühüm tarixi hadisə - ilk Avropa Oyunlarının açılışı münasibətilə Prezident İlham Əliyevi və Azərbaycan xalqını təbrik edib. Bildirib ki, bu, həqiqətən də beynəlxalq idman hadisəsinə layiq, möhtəşəm, təəssüratoyadıcı bir hadisə, eyni zamanda, istedadla, ləyaqətlə çox gözəl təşkil olunmuş təqdimat idi: «Deməliyəm ki, bunu hazırlayanlar əbəs yerə zəhmət sərf etməyiblər, bu tədbir həqiqətən çox gözəl alınıb».

Ölkələrimiz arasındakı münasibətlərin səviyyəsini yüksək qiymətləndirən Rusiyanın dövlət başçısı ikitərəfli ticarət dövriyyəsinin artdığını, bu ilin birinci yarısında təxminən 6 faiz artımın olduğunu, azərbaycanlı sahibkarların Rusiya bazarlarından mümkün qədər daha səmərəli istifadə etdiyini diqqətə çatdırıb.

2 Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti ilə görüş

3 Tədrisin və təlimin doğru ünvanı

4 Nağdsız ödəniş şəbəkəsi genişləndirilir

5 «Elektron hökumət»dən istifadə imkanları artır

# Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti ilə görüş

*İyun ayının 12-də vergilər naziri, 1-ci dərəcəli dövlət vergi xidməti müşaviri, Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Fazil Məmmədov Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti Brayn Kuksonu qəbul etmişdir.*



I Avropa Oyunlarının rəsmi açılış mərasimində iştirak etmək üçün ölkəmizdə səfərdə olan qonağı səmimi salamlayan F.Məmmədov bildirmişdir ki, bu gün həm Azərbaycan, həm də dünya ictimaiyyəti möhtəşəm bir idman bayramının şahidi olacaqdır. Ölkəmizin iki ildən artıq hazırlaşdığı I Avropa Oyunları 17 gün ərzində idmanın müxtəlif növləri üzrə öz azarkeşlərini sevindirəcəkdir.

F.Məmmədov qeyd etmişdir ki, ilk Avropa Oyunlarında velosiped idmanının üç növü üzrə yarışlar keçiriləcəkdir. Bu məqsədlə ölkəmizdə müvafiq infrastruktur yaradılmışdır. Bakıda inşa olunmuş BMX veloparkı və dağ velosipedi parkı Beynəlxalq Velosipedçilər İttifaqının standartlarına tam cavab verir. Burada yüksək səviyyəli qonaqlar, idmançılar, əlil tamaşaçılar və mətbuat nümayəndələri üçün xüsusi yerlər nəzərdə tutulmuşdur.

Ölkəmizdə son illərdə velosiped idmanının sürətlə inkişaf etdiyini bildirən F.Məmmədov ilk Avropa Oyunlarında Azərbaycan velosipedçilərinin də yaxşı nəticələr göstərəcəyinə böyük ümidlər bəslədiyini bildirmişdir.

Brayn Kukson səmimi qəbula görə minnətdarlığını bildirmiş, I Avropa Oyunlarının rəsmi açılış mərasimində iştirakından məmnunluğunu ifadə etmişdir. Qonaq «Bakı-2015» I Avropa Oyunlarının yarış cədvəlinə daxil edilmiş velosiped idmanının üç növü - BMX, dağ və şose yarışlarında 300-dən çox idmançının iştirak edəcəyini, bu yarışların hamısında 2016-cı ildə Rio de Janeyroda keçiriləcək Yay Olimpiya Oyunları üçün lisenziya xalları əldə etmək imkanlarını da vurğulamışdır.

Azərbaycanda az müddət ərzində velosiped idmanının sürətlə inkişaf etdiyindən razılığını ifadə edən B.Kukson «Tour d`Azerbaidjan» beynəlxalq yarışının artıq UCİ-nin təqvimində öz yerini möhkəmləndirdiyini, Azərbaycan velosipedçilərinin bir çox beynəlxalq yarışlarda uğurla çıxış etdiyini də diqqətə çatdırmışdır. O, «Synergy Baku» komandasının üzvü Maksim Averinin Slovakiya turunun ikinci mərhələsində birinci yerə çıxmasını Azərbaycan velosipedçilərinin hazırlıq səviyyəsinin yüksək olduğuna dəlalət etdiyini, Bakıya qayıtdıqdan sonra onların Avropa Oyunlarında da yüksək yerlər tutacağına ümid etdiyini bildirmişdir.

2013-cü ilə qədər 17 il İngiltərənin Velosiped Federasiyasına rəhbərlik etdiyini və milli federasiyaların üzləşdikləri problemlərə yaxından bələd olduğunu qeyd edən B.Kukson Azərbaycan Velosiped İdmanı Federasiyasının son bir neçə il ərzində çox böyük işlər gördüyünü vurğulayaraq, ona həmişə dəstək verməyə, Azərbaycan velosipedçilərinin, mexaniklərin və məşqçilərin UCİ-nin İsveçrədəki təlim bazasında öz peşə hazırlıqlarını artırmaları üçün onlara hərtərəfli şərait yaratmağa hazır olduğunu nəzərə çatdırmışdır.

Görüşdə 2018-ci ildə BMX üzrə dünya çempionatının Azərbaycanda keçirilməsi ilə bağlı məsələlər də müzakirə edilmişdir.

# Vergi daxilolmaları üzrə proqnoz tapşırığına artıqlaması ilə əməl edilib

2015-ci ilin yanvar-may ayları ərzində Vergilər Nazirliyinin xətti ilə dövlət büdcəsinə 2 milyard 848 milyon 882,7 min manat vəsait daxil olmuş, proqnoz tapşırığına 101,6% əməl edilmişdir.

Qeyri neft-qaz sektoru üzrə büdcəyə 1 milyard 905 milyon 879 min manat vəsait daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11% çoxdur. Ümumi vergi daxilolmalarında qeyri neft-qaz sektorunun xüsusi çəkisi 66,9% təşkil edir.

# Avropa təcrübəsi öyrənilir

*Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsi TAIEX Ekspert Missiyası üzrə Avropa Komissiyasına «Nağdsız hesablaşmaların stimullaşdırılması» mövzusunda müraciət etmişdir. Müraciət müsbət qarşılanmış, ekspertin ayrılması və digər texniki məsələlər həll olunduqdan sonra Vergilər Nazirliyinin inzibati binasında seminar təşkil olunmuşdur.*

TAIEX - Avropa Komissiyasının Genişlənmə üzrə Baş Direktorluğunun Texniki Yardım və İnformasiya Mübadiləsi mexanizmidir. Bu yardım aləti vasitəsilə ölkələrə milli qanunvericiliyin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılması və həyata keçirilməsi sahəsində qısamüddətli texniki dəstək və tövsiyələr verilir. Yardım çərçivəsində Avropa İttifaqının üzv dövlətlərinin dövlət sektorunda çalışan ekspertləri müxtəlif hüquqi məsələlərə aydınlıq gətirir, qanun layihələrini qiymətləndirir və Aİ-nin digər üzv dövlətləri ilə ən yaxşı təcrübənin bölüşmək üçün tövsiyələr verirlər.

Vergilər Nazirliyinin təcrübəli və bu sahə ilə birbaşa əlaqəli əməkdaşlarının iştirak etdiyi seminarda nağdsız hesablaşmaların stimullaşdırılması sahəsində Avropanın qabaqcıl ölkələrinin təcrübəsinin öyrənilməsi ilə yanaşı, qanunvericilik aktlarının Avropa təcrübəsinə uyğunlaşdırılması, bu sahədə mövcud inzibatçılıq qaydaları ilə bağlı müzakirələrin aparılması təşkil olunmuşdur.

Seminarda Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin Strateji araşdırmalar idarəsinin Vergi araşdırmaları və monitorinq şöbəsinin rəisi Yunis Quliyevin «Nağdsız hesablaşmaların stimullaşdırılması sahəsində Azərbaycandakı mövcud vəziyyət» barədə təqdimatı dinlənilmişdir. Tədbirdə iştirak edən Polşa Maliyyə Nəzarəti Orqanının əməkdaşı Adam Janisevski Tomas öz çıxışında bildirmişdir ki, dünya ölkələri, xüsusilə də inkişaf etmiş ölkələr iqtisadiyyatda şəffaflığın artırılması və maliyyə intizamının gücləndirilməsi məqsədilə maliyyə əməliyyatlarına nəzarət sahəsində həssas mövqe nümayiş etdirirlər. Bu, özünü həm nağd hesablaşmaların məhdudlaşdırılması, həm də nağdsız hesablaşmaların stimullaşdırılması üzrə həyata keçirilən tədbirlərdə göstərir. Ekspert nümunə kimi Polşada qəbul olunmuş «2014-2020-ci illərdə nağdsız hesablaşmaların inkişaf etdirilməsi» proqramı haqqında iştirakçılara məlumat vermişdir. Qeyd edilmişdir ki, proqram Polşada bu sahədə əhəmiyyətli irəliləyişlərin olacağına zəmin yaradır. O, Polşa təcrübəsi ilə yanaşı, Avropa ölkələrində nağdsız hesablaşmalar sahəsində ən son yeniliklər barədə də məlumat vermişdir. Bildirilmişdir ki, son dövrlərdə Avropa ölkələrində populyarlığı artan və demək olar ki, pul vəsaiti kimi alış-verişdə istifadə edilən bitcoinlər mərkəzi banklardan və vergi orqanlarından nəzarətsiz dövriyyə olunur. Bu məsələnin artıq Avropanın bir çox ölkəsini narahat etdiyini bildirən iştirakçılar yaxın gələcəkdə bitcoinlərin Azərbaycanda da istifadə edilmə ehtimalını nəzərə çatdırmışlar. Bunun üçün artıq bir çox Avropa ölkəsində tətbiq olunan prosedurların və qanunvericiliklərin dərindən öyrənilərək Azərbaycanda tətbiqinin vacibliyi vurğulanmışdır.

Beynəlxalq təcrübədən göründüyü kimi, maliyyə əməliyyatlarına nəzarətin gücləndirilməsi üçün qanunvericiliyə nağd əməliyyatların sayının və məbləğinin məhdudlaşdırılmasını nəzərdə tutan müddəaların əlavə edilməsi, nağd vasitələrlə hesablaşmaların əhatə dairəsini məhdudlaşdıran praktiki tədbirlərin görülməsi, bank kartları və əməliyyat avadanlıqları ilə bağlı infrastrukturların təkmilləşdirilməsi, eləcə də telefon bankçılığı, internet bankçılığı kimi sahələrin inkişaf etdirilməsi aktual vəzifələrdəndir.

**AYTƏN**

# POS-terminalların quraşdırılması təmin edilib

Vergilər Nazirliyi respublikamızda keçirilən I Avropa Oyunları ərəfəsində nağdsız ödənişlərin həyata keçirilməsinin təmin edilməsi üçün POS-terminalların quraşdırılması və onlardan istifadə qaydalarına əməl olunması ilə bağlı silsilə tədbirlər keçirib.

Bakı və Mingəçevir şəhərlərində, xüsusilə də I Avropa Oyunlarının keçirildiyi 18 arena və onların ətrafındakı təsərrüfat subyektlərində yerləşən müxtəlif ticarət, əyləncə, ictimai-iaşə və s. obyektlərdə POS-terminalların quraşdırılması başa çatdırılıb. Bakı şəhəri üzrə 53 min 700, Mingəçevir şəhəri üzrə isə 1929 ədəd POS-terminal quraşdırılıb, obyektlərdə POS-terminallardan istifadə qaydalarına əməl olunmasının nəzarətdə saxlanılması üçün həmin ərazilərə vergi orqanlarının əməkdaşları təhkim edilib.

Artıq ölkədə quraşdırılmış POS-terminalların ümumi sayı 86 minə çatıb ki, onların da 62,4%-i Bakı şəhərinin, 37,6%-i isə digər şəhər və rayonların payına düşür.

# Bütün kartlar bir cibdə...

Bankların öz müştərilərinə hesablarını kompüter və smartfonlar vasitəsilə idarə etməyə, bütün əməliyyatlara nəzarət etmək, hesaba nə qədər pul köçürüldüyü və nə qədər xərcləndiyi ilə bağlı məlumatları yoxlamağa imkan verməsi texnologiyanın inkişafının real həyata tətbiqi sayəsində mümkün olub. İndi xüsusi proqramların köməyi ilə kommunal xərcləri ödəyə, eləcə də kartını itirdiyin zaman onu blok edib, içindəki məbləği qoruya bilərsən.

Getdikcə bank xidmətləri «mobilləşir»: bu günlərdə «MilliKart» mobil telefondan pul köçürməyə, xidmətləri ödəməyə və aparılmış əməliyyatların detallarına baxmağa imkan verən yeni əlavəsini təqdim edib. Xidmətdən istifadə etmək üçün proqramı mobil cihaza yükləyib qeydiyyatdan keçmək tələb olunur. Sonrakı mərhələdə kart məlumatları daxil edilməklə proqrama əlavə olunur. Proqrama məhdudiyyətsiz sayda kart əlavə etmək mümkündür.

Bir aylıq sınaq müddəti üçün xidmətdən pulsuz istifadə təklif olunur. Sınaq müddəti başa çatdıqdan sonra hər əlavə edilən karta görə ayda cəmi 20 qəpik xidmət haqqı tutulur.

«MilliKart»dan verilən məlumata görə, tətbiq olunan mobil bankçılıq vasitəsilə istifadəçilər asanlıqla kart vəsaitlərini idarə edəcək və maliyyə durumları haqqında məlumat alacaq, banklar isə müştərilərinə təqdim edilən məhsul portfoliosunu genişləndirə biləcəklər.

«MilliKart»ın mobil bankçılıq həlli müxtəlif ödəniş və köçürmə imkanlarına da şərait yaradır və mobil bazarda olan qurğuların 95%-ni əhatə edir. Mobil bankçılıq həlli onlayn bank sistemlərinin tam funksionallığını əhatə edən yeganə xidmətdir.

**FƏXRİYYƏ**

# «Elektron imza» laboratoriyası yaradılır

*Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən elektron-imza infrastrukturu ilə əlaqədar laboratoriya yaradılacaq.*

Laboratoriya Azərbaycan Texniki Universitetinin «İnformasiya texnologiyaları və proqramlaşdırma» kafedrasında təşkil olunacaq.

Mərkəzin direktoru Mail Mərdanovun sözlərinə görə, bu laboratoriyanın fəaliyyəti nəticəsində tələbələr «E-hökumət» üzrə yaradılacaq xidmətlərin elektronlaşması və mobil tərtibatların hazırlanma prosesində əyani iştirak edərək xidmət təminatçısı kimi fəaliyyət göstərəcək, yüksək ixtisaslı kadr kimi formalaşacaqlar.

MHM «Elektron hökumət» portalının və elektron dünyanın əsas bazisi olan «Elektron imza» üçün açıq açar İnfrastrukturunun (PKİ) - Milli Sertifikat Xidmətləri mərkəzlərinin, ölkənin bütün ərazisini əhatə edən AzDataCom - yüksək sürətli məlumatların ötürülməsi şəbəkəsinin operatorudur.

Eyni zamanda, mərkəz respublikamızda informasiya sistemlərinin və ehtiyatlarının elektron idarəçilik istiqamətində istifadəsini əlaqələndirir.

# Sahibkarlar və menecerlər maarifləndirilir

*Bakı Biznes Tədris Mərkəzində «Azərbaycan Respublikasında biznesin idarə olunması sahəsində kadrların ixtisasının artırılması üzrə Almaniya-Azərbaycan birgə Proqramı» çərçivəsində sahibkar və gənc menecerlər üçün seminar keçirilib.*

İxtisasartırma kurslarının səmərəliliyinin qiymətləndirilməsinə həsr edilmiş tədbirdə İqtisadiyyat və Sənaye Nazirliyinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının, Almaniya Federativ Respublikasının Azərbaycandakı səfirliyinin, Almaniya Sənaye və Ticarət Palatasının, Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin və müvafiq tədris mərkəzlərinin nümayəndələri, eləcə də 2014-cü ildə Almaniyada «İqtisadi kooperasiya» üzrə ixtisasartırma kursları keçmiş 40-dan çox sahibkar və gənc menecer iştirak ediblər.

Seminarda İqtisadiyyat və Sənaye Nazirliyinin, Bakı Biznes Tədris Mərkəzinin əməkdaşları, Almaniya Sənaye və Ticarət Palatasının Azərbaycan üzrə nümayəndəsi Florian Şroder və digərləri çıxış edərək ixtisasartırma kurslarının uğurlu nəticələri barədə məlumat veriblər.

Tədbirdə ixtisasartırma kursunda iştirak etmiş menecerlər Almaniyanın müvafiq şirkətləri ilə yaradılmış işgüzar əlaqələr və imzalanmış biznes müqavilələri barədə iştirakçılara məlumat veriblər. İki gün davam edən tədbirdə iqtisadi kooperasiya, Almaniyanın tibb müəssisələri ilə işgüzar əlaqələrin qurulması barədə məlumat iştirakçıların diqqətinə çatdırılıb, onları maraqlandıran suallar cavablandırılıb.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- 2015-ci ilin 5 ayında Azərbaycanda **1 tona yaxın** qızıl istehsal olunub.
- Ölkədə quraşdırılmış POS-terminalların sayı **86 minə** çatıb ki, onların da **62,4%-i** Bakı şəhərinin, **37,6%-i** isə digər şəhər və rayonların payına düşür.
- Cari ilin mayın ayının 1-dək Azərbaycanda **2,642 min ədəd bankomat** quraşdırılıb. Bu, ilin əvvəlinə olan göstərici ilə müqayisədə **1,3%** çoxdur.
- Bu il Azərbaycanda əməkhaqqı **4%-ə** qədər əhalinin gəlirləri **6%-ə** qədər artıb.
- Mərkəzi Bankın məlumatına görə, may ayının 1-i vəziyyətinə ölkənin dövlət banklarının kredit portfeli **7414 milyon manata** çatıb. Özəl banklar tərəfindən isə istehlakçılara **12.590,9 milyon manat** həcmində kredit verilib. Yerdə qalan qalan **2,9% (590,6 milyon manat)** bank olmayan kredit təşkilatlarının payına düşüb.
- Cari ilin ilk beş ayında elektron pərakəndə ticarət dövriyyəsinin həcmi əvvəlki ilin müvafiq dövrünə nisbətən **1,9 dəfə** artaraq **4,9 milyon manat** təşkil edib.

# Tədrisin və təlimin doğru ünvanı

*Sonuncu dəfə Vergilər Nazirliyinin Şamaxıda yerləşən Tədris Mərkəzində təxminən 2 il əvvəl olmuşduq və üz tutduğumuz məkanın 200-300 metr uzaqdan görünüşü bizdə belə təəssürat yaradırdı ki, sanki yolu səhv salıb başqa ünvana gəlmişik.*

Mərkəzi fərqləndirən əsas cəhət inzibati, tədris, yataqxana, yaşayış və kotteclərdən ibarət binaların, idman-sağlamlıq kompleksinin vahid bir ərazidə yerləşməsidir. Bura həm təhsil almaq və elmi fəaliyyətlə məşğul olmaq, həm yaşamaq, həm də təhsildənkənar vaxtlarda istirahət etmək üçün seçilmiş gözəl bir məkandır.

Müdavimlər üçün ən sürətli internetlə (WI-FI) və digər İKT imkanları ilə təchiz edilmiş bu məkanda yaradılmış şərait həqiqətən yüksək keyfiyyətdən xəbər verir.

***«Sakitliyə riayət edin, dərs gedir!»***

Binanın daxilində sakitlik hökm sürür. Xidməti personalın işçilərindən başqa, kimsə gözə dəymir.

İlk daxil olduğumuz auditoriyada vergi inzibatçılığı dərsi tədris olunur. Müəllim Yaşar Dəmirov mövzunu elektron lövhə üzərində izah etdikdən sonra lövhəyə dinləyici Aslan Rəhimovu dəvət edir...

Məlum olur ki, bu fənn üzrə dinləyicilərə vergi orqanları tərəfindən xidmətin, operativ vergi nəzarətinin, kameral və səyyar vergi yoxlamalarının həyata keçirilməsi, qeydiyyat və vergi uçotu, təqdim edilməmiş bəyannamələrin və vergi borclarının alınması, kargüzarlıq və koordinasiya işlərinin təşkili qaydaları barədə biliklər verilir. Təlimə ilkin hazırlıq kurslarının əməkdaşları olan dinləyicilərlə yanaşı, stajçı vergi orqanı əməkdaşları da cəlb olunurlar. 20 nəfərlik dinləyici qrupuna 64 saat əyani, 38 saat distant və 103 saat kombinə edilmiş formada təhsil verilir. Yaşar müəllim tədris planının başlıca hədəfinin vergi sistemində çalışan əməkdaşların peşə hazırlığını və ixtisaslarını artırmaq, vergi siyasətinə dair aparılan elmi tədqiqatlar barədə onları zəruri biliklərlə təmin etmək olduğunu bildirir...

Növbəti auditoriyada «məsləhət saatı»dır. Müəllim Qalib Tarverdiyev mühasibat uçotunu tədris edir. Elektron lövhədəki qeydlərdən də görünür ki, bu fənn daha çox praktiki xarakter daşıyır, dinləyicilər növbə ilə müxtəlif riyazi-iqtisadi düsturları həll etməklə mövzunu mənimsəməyə çalışırlar. Mövzuya uyğun olaraq mühasibat uçotu hesabları və balans, maliyyə-pul vəsaitlərinin və hesablaşmaların aparılması və digər istiqamətlər üzrə nəzəri-praktiki məsələlər izah olunur. Dinləyicilərdən Fəridə Məmmədova, Rəşad Cəbiyev, Elvin Məmmədli və Tofiq Əliyev mövzunu tam mənimsəmək üçün müzakirədə daha fəal görünürlər. Qalib müəllim deyir ki, bu fənn üzrə tədris prosesinə orta menecerlər, mütəxəssislər və stajçı əməkdaşlar cəlb olunurlar.

***Vergi orqanı əməkdaşlarının əksəriyyəti təlim proseslərinə cəlb olunub***

Tədris və metodika şöbəsinin rəisi Ramiz Məhərrəmov deyir ki, Mərkəzdə ixtisasartırma və ilkin hazırlıq kursları, təlim sessiyaları, KİV nümayəndələri, bələdiyyələr, vergi ödəyiciləri üçün seminar-məşğələlər, vergitutmanın aktual məsələləri ilə bağlı beynəlxalq simpoziumlar, konfranslar və digər tədbirlər keçirilir. Tədris kursları müasir informasiya və kommunikasiya vasitələri tətbiq edilməklə aparılır, dinləyicilərin bilik və peşə hazırlığı səviyyəsi test üsulu ilə onlayn rejimdə qiymətləndirilir: «2014-cü ildə ilkin hazırlıq kurslarına 215, ixtisasartırma kurslarına 387, qısamüddətli təlimlərə isə 991 əməkdaş cəlb olunub. Beləliklə, il ərzində 1593 nəfər vergi əməkdaşı təlim prosesində iştirak edib. Vergi orqanı əməkdaşlarının 63%-i təlim prosesləri ilə əhatə olunub. Təlimə cəlb edilən əməkdaşların sayında əsaslı artım nəzərə çarpır. Müqayisə üçün qeyd edək ki, təlim prosesinə cəlb edilmiş əməkdaşların sayı 2013-cü ildə 1204, 2012-ci ildə 707 nəfər idi».

Tədrisin kifayətlilik göstəricisi kimi bir təqvim ili ərzində bir orta statistik vergi işçisinə düşən tədris günlərinin sayı əsas götürülür. 2014-cü ildə Tədris Mərkəzi tərəfindən təşkil edilən təlimlər üzrə kifayətlilik göstəricisi 7,2 adam-gün olub. 2011-ci il ərzində həmin göstəricinin illik qiyməti 3,2; 2012-ci ildə 3,7; 2013-cü ildə isə 4,7 təşkil edib. Bu göstəricidə distant təhsilalma formasında təşkil edilmiş kursların payı 3,6 adam-gün olub. Tədris kurslarının səmərəliliyinin təmin olunması nöqteyi-nəzərindən, dinləyicilərin zəif cəhətlərinin və daha çox diqqət yetirilməli olan məsələlərin dəqiqləşdirilməsi üçün peşə hazırlığının və bilik səviyyəsinin ilkin qiymətləndirilməsi və tədris kursunun sonunda müvafiq tövsiyənin verilməsi üçün son qiymətləndirmə aparılır. R.Məhərrəmovun sözlərinə görə, qiymətləndirmələrin nəticələrinin müqayisəsi göstərir ki, ilkin və yekun qiymətlər arasında ümumi fərq orta hesabla 23 bənd olub. 2014-cü ildə 8 ilkin hazırlıq və 14 ixtisasartırma kursu, 44 qısamüddətli təlim təşkil edilib.

Elmi tədqiqat işləri üzrə rəis müavini Mirəli Kazımovun sözlərinə görə, Tədris Mərkəzi tədris müəssisəsi statuslu elm və təhsil ocağı olmaqla dövlət vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığının təkmilləşdirilməsini və ixtisaslarının artırılmasını, habelə vergi siyasətinə dair elmi tədqiqatların aparılmasını təmin edir: «İndi tədris prosesində interaktivliyin rolu artıb. Dərs zamanı slaydlardan istifadə edilməsi, kurikulumların tərtib olunması ilə kifayətlənmək mümkün deyil. Təlim proqramının daha müasir tədris resurslarından istifadə etməklə standartlaşdırılması üçün müxtəlif elektron dərs vəsaitlərinin yaradılması, videokursların, təlim videoçarxlarının çəkilməsi, onları Mərkəzin portalında yerləşdirərək məsafədən təhsilin imkanlarının artırılması və onlayn rejimli tədris tədbirlərinin keçirilməsi aktualdır».

Vergilər Nazirliyinin Tədris Konsepsiyasına uyğun olaraq, təlimlərin keyfiyyətinin artırılması və əhatə dairəsinin genişləndirilməsi istiqamətində görülən tədbirlər nəticəsində vergi orqanı əməkdaşlarının 2012-ci ildə 32,2%-i, 2013-cü ildə 54,7%-i, 2014-cü ildə isə 63,7%-i təlim proseslərinə cəlb edilib, il ərzində bir vergi işçisinə düşən təlim günlərinin sayı 2012-ci ildə 3,6 gün/adam, 2013-cü ildə 4,7 gün/adam, 2014-cü ildə isə 8,6 gün/adam olub.

***İnsan resurslarının inkişafı***

Tədris Mərkəzinin təhsil işləri üzrə rəis müavini İlqar Seyfullayev: «Vergi orqanı əməkdaşlarının müasir tələblərə uyğunlaşdırılması üçün Vergilər Nazirliyində İnsan resurslarının inkişafı Konsepsiyasına uyğun olaraq, tədris konsepsiyası hazırlanıb. Bu məqsədlə «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan» hazırlanıb. Strategiyada vergi qanunvericiliyinin və vergi nəzarətinin təkmilləşdirilməsi, vergi inzibatçılığının səmərəliliyinin artırılması, vergi mədəniyyətinin yüksəldilməsi, vergi borclarının alınması mexanizmlərinin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və digər istiqamətlər üzrə 22 strateji hədəf müəyyən edilib. Elmə söykənən və sistemli araşdırmalar əsasında müəyyən olunan bu hədəflər həyata keçirilən vergi siyasətinin səmərəliliyinin artırılması üçün yeni elmi araşdırmaların aparılmasına, əsaslandırılmış nəzəri və tətbiqi xarakterli ideyaların irəli sürülməsinə böyük zərurət yaradır».



Ramiz Məhərrəmov əlavə edir ki, Vergilər Nazirliyinin idarə rəisləri və aparıcı mütəxəssisləri tədris prosesini izləmək üçün tez-tez auditoriyalara baş çəkirlər. Tvinninq layihəsi çərçivəsində planlaşdırılan elektron təhsil və e-tədrislə bağlı nazirliyin yüksək vəzifəli şəxslərinin və xarici qonaqların səfərləri son vaxtlar daha da intensivləşib. Görüşlərdə tədrisin keyfiyyəti, metodiki vəsaitlər, texniki imkanlar və digər məsələlərlə bağlı dinləyicilərin fikirləri öyrənilir, onların rəy və təklifləri nəzərə alınır.

***İmtahanlara hazırlaşmaq üçün əlverişli ünvan...***

Mərkəzin kitabxanası da ən çox üz tutulan məkanlardan biridir. Kitabxana son vaxtlar daha da müasirləşdirilib, zəngin vəsaitlərlə təmin olunub. Vergilər Nazirliyinin tarixinə, vergi sisteminin inkişafı ilə bağlı həyata keçirilən islahatlara dair materiallar və Azərbaycanın iqtisadi həyatına dair əyani vəsaitlər, müxtəlif istiqamətli ədəbiyyatlar, xarici ölkələrin vergi sistemi ilə bağlı materiallar, digər vasitələr, iqtisadiyyat, hüquq və mülki qanunvericiliyə aid məcəllələr kitabxananın əsas fondunu təşkil edir. Kitabxanada Azərbaycanın dövlət müstəqilliyini bərpa edəndən sonra keçdiyi inkişaf yoluna, ölkə iqtisadiyyatının müxtəlif sahələrinə, vergi sistemində həyata keçirilən islahatlara dair vəsaitlər əldə etmək olar.

Dinləyici Gülnar İsmayılova deyir ki, bura hər gün üz tutduğu yerdir. Gündə ən azı bir saat burada mütaliə edir. Fərid Sultanov imtahanlara yaxşı hazırlaşmaq üçün ən sərfəli məkan buranı hesab edir. Deyir ki, kitabxanada vergi qanunvericiliyindən tutmuş vergi sistemində tətbiq olunan ən son yeniliklər barədə məlumatlara rast gəlmək mümkündür: «Sakit bir şəraitdə kitabxanada hazırlaşmaq imtahandan uğurla çıxmaq deməkdir».

Sübhan Orucov da yolunu hər gün buradan salır, təkcə vergiyə dair deyil, ümumilikdə ölkənin iqtisadi-sosial, humanitar həyatına dair kitab və broşürlər, qəzet və jurnallarla tanış olur.

***Vergi tariximizin canlı salnaməsi***

Tədris Mərkəzində yerləşən muzeyin özünəməxsus yeri var. Burada Azərbaycanın vergi tarixini əks etdirən maddi mədəniyyət nümunələri, qədim və orta əsrlərdə vergi yığımlarını əks etdirən materiallar, vergiyə dair maddi mədəniyyət eksponatları toplanıb. Muzeydə məlumat xarakterli lövhələr, xilafət dövründə tətbiq olunan zəkat, üşr (torpaq), cizyə vergisinə aid informasiyalar, həmin vergilərin insanların həyat və sosial təminatları, dövlət əhəmiyyətli infrastrukturların inşa olunmasına və digər sahələrə xərclənməsini əks etdirən materiallar maraq doğurur. Eləcə də xanlıqlar dövründə Azərbaycanda yığılan vergilər, vergilərin hesablanması üçün müxtəlif ölçü cihazları, tərəzilər, alətlər muzeyə xüsusi sanbal verir.

***İstirahət və idman***

Saat 18 radələridir. Foyedə qələbəlikdir. Kimsə pianoda müsiqi ifa edir... Dinləyicilərin əksəriyyəti dərsdən sonra bura toplaşaraq şahmat, domino, nərd, dama oynamağı çox sevirlər. İri ekranlı televizorlar vasitəsilə yerli və xarici kanalları izləmək mümkündür.

Ayrıca tikilmiş yaşayış korpusunun infrastruktur təminatı yüksək səviyyədə qurulub. Birotaqlı 12, ikiotaqlı 24 mənzildən ibarət iki korpusda müəllimlərin ailələrinin yaşayışı üçün lazım olan tələblər nəzərə alınıb. Otaqlarda rahat yaşayış üçün hər cür şərait yaradılıb. Mətbəx və hamam 24 saat fasiləsiz isti və soyuq su ilə təmin olunub. Mənzillərin hər birində soyuducu, televizor, şkaf və digər avadanlıqlar yerləşdirilib, mərkəzləşdirilmiş istilik sistemi quraşdırılıb, ayrıca telefon xətti çəkilib. Qışda otaqların qızdırılması da yüksək səviyyədə təmin edilir.

Müəllimlərin və dinləyicilərin sağlamlığı və istirahəti üçün nəzərdə tutulmuş məkanlardan biri də idman kompleksidir. Burada həmişə qələbəlik olur. Trenajorlardan, digər idman qurğularından istifadə bir neçə saatlıq dərsdən sonra zehni yorğunluğun və stressin aradan qaldırılmasında ən yaxşı vasitədir.

***Elmi ictimaiyyətin gözü ilə və ya bir addım öndə...***

Qeyd edək ki, Tədris Mərkəzi həmişə qonaq-qaralı olur. Bura yerli və xarici qonaqların gəlişi ənənə halını alıb. Azərbaycanın tanınmış alimlərinin, nüfuzlu iş adamlarının bu məkana üz tutması və tanışlıqdan sonra tədris müəssisəsi haqqında düşüncələrini bölüşməsi bunu təsdiq edir. Tədris Mərkəzində olarkən respublikamızın tanınmış akademikləri Ziyad Səmədzadə, Hətəm Quliyev, Vaqif Fərzəliyev, Adil Qəribov, Arif Həşimov, millət vəkili Xanhüseyn Kazımlı, professor Fuad Məmmədovla bu məkanda görüşüb söhbət etmək imkanlarımız da oldu.

İyun ayının 5-də keçirilən «Azərbaycanın davamlı inkişafında vergi siyasətinin rolu» mövzusunda elmi-praktik konfransın iştirakçılarının tədbirdən əvvəl Tədris Mərkəzi ilə 25-30 dəqiqəlik tanışlığı onlarda yüksək təəssürat oyatmışdı. Tədbirə qatılan alimlərin münasibətindən hiss olunurdu ki, onlar təhsil və təlim üçün belə bir yerin seçilməsini yüksək qiymətləndirirlər. Milli Elmlər Akademiyasının şöbə müdiri Aqil Əsədov yarızarafat replika atdı: «Akademiyanın tədqiqat müəssisələrindən biri burada yerləşsəydi, işləməyə nə vardı ki?».

Professor Fuad Məmmədov isə ciddi tərzdə bildirdi ki, Vergilər Nazirliyinin Tədris Mərkəzində yaradılmış şərait digər dövlət qurumları üçün də müsbət nümunə sayıla bilər: «Tanışlıq zamanı bu təhsil müəssisəsinin müasir idarəçilik əsasında işlədiyini gördük. Doğrusu, Vergilər Nazirliyinin Tədris Mərkəzinin bu cür müasir binaya və təchizata malik olduğunu təsəvvür etmirdik. Burada tədrisin informasiya texnologiyalarının ən son nailiyyətləri əsasında qurulması alqışlanmalıdır. Mərkəzdə həm dinləyicilər, həm də müəllimlər üçün normal iş şəraiti yaradılıb. Belə tədris-təlim müəssisələrinin mövcudluğu, ümumilikdə, elmimizin inkişafına mühüm töhfə olmaqla yanaşı, Vergilər Nazirliyinin müasir iş üslubunun, innovativ yeniliklərə meyilliliyinin nəticəsidir».

Tədris Mərkəzinin inzibati binasını qarış-qarış gəzdiyini deyən millət vəkili Xanhüseyn Kazımlı müdavimlərin istirahət otağına daxil olarkən zarafatından qalmır: «Vallah, əvvəlcə elə bildim sanatoriyaya gəlmişəm...».

Akademik Arif Həşimov dinləyicilərin təhsil prosesini yaxından izlədiyini və tədrisin praktik metodlarla aparılmasını müsbət qiymətləndirərək burada yaxşı bir ənənənin əsasının qoyulduğunu bildirdi.

Millət vəkili, akademik Ziyad Səmədzadə isə buraya bir neçə dəfə yolu düşdüyünü, amma təmirdən sonra Tədris Mərkəzinin müsbətə doğru köklü şəkildə dəyişdiyinin şahidi olduğunu bildirdi: «Vergilər Nazirliyi yeniliklərin tətbiqi sahəsində daim bir addım öndə gedir, belə bir tədris müəssisəsinin yaradılması da nazirliyin digər qurumlara nümunə olduğunu göstərir».

## Dinləyicilər nə deyir...

♦ ***Rüstəm Ağayev:*** «Dərsdən sonra istirahət və günümüzün xoş keçməsi üçün burada hər cür şərait yaradılıb. «Vitamin bar» sevdiyim məkanlardan biridir. Dərsdən sonra yorğunluq, narahatlıq burada aradan qalxır».

♦ ***Manisə Abdullayeva:*** «Vergi sistemində aparılan islahatlar yeni dövrün tələblərinə uyğun kadr hazırlığının təmin olunmasını tələb edir. Bu istiqamətdə Tədris Mərkəzinin fəaliyyəti əvəzsizdir. Biz burada öyrəndiklərimizi praktiki olaraq işimizdə təsdiq etməyə çalışacağıq».

♦ ***Nicat Hüseynov:*** «Mərkəzdə hər şey yaxşı təşkil olunub, tədrisin əyaniliyini təmin etmək üçün lazım olan texniki imkanlar yaradılıb».

♦ ***Elçin Məmmədli:*** «Müasir dövrdə iqtisadi inkişafın əsas tələblərindən biri elmi biliklərə əsaslanan iqtisadiyyatın yaradılmasıdır. Yeni texnologiyalar əsasında idarə olunan iqtisadiyyatda kadr potensialının rolu çox böyükdür. Hazırda ölkəmizdə elektron xidmətlərin tətbiq dairəsi genişlənib, informasiya cəmiyyəti quruculuğu geniş vüsət alıb və Vergilər Nazirliyi bu yenilikləri ən çox tətbiq edən dövlət orqanıdır. Mərkəzdə tədrisin keyfiyyətinin yüksəldilməsi, yeni tədris modelinin tətbiqi ilə bağlı həyata keçirilən tədbirlər mühüm əhəmiyyətə malikdir».

♦ ***Emil İsmayılov:*** «Vergilər Nazirliyinin insan resurslarının inkişafı ilə bağlı strategiyasında başlıca istiqamətlərdən biri vergi işçilərinin peşə hazırlığının artırılması, güclü kadr bazasının formalaşdırılmasıdır. Tədris Mərkəzi də bu strateji məqsədlərə xidmət edir. Burada tətbiq olunan tədris proqramı əməkdaşların peşə hazırlığının təkmilləşdirilməsinin və ixtisaslarının artırılmasının güclənməsinə təkan verir».

**Elbrus CƏFƏRLİ**



## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

# Ödəmə mənbəyində vergi

***Ticarət nişanından istifadə hüququnun əldə edilməsi ilə bağlı qeyri-rezident hüquqi şəxsə ödənilən məbləğdən ödəmə mənbəyində hansı dərəcə ilə vergi tutulur?***

Vergi Məcəlləsinin (Məcəllə) 13.2.23-cü maddəsinə əsasən, royalti - ədəbiyyat, incəsənət, yaxud elm əsərləri, proqram təminatı, kinematoqrafik filmlər və digər qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunması, yaxud istifadə hüquqlarının verilməsinə görə, istənilən patentə, ticarət markasına, dizayn, yaxud modelə, plana, məxfi düstura, yaxud prosesə, sənaye, kommersiya, yaxud elmi təcrübəyə aid olan informasiyaya, sənaye, kommersiya və ya elmi avadanlıqdan istifadə, yaxud istifadə hüquqlarının verilməsinə görə mükafat şəklində alınan ödənişlərdir.

Məcəllənin 124.1-ci maddəsinin müddəalarına görə, daşınan və daşınmaz əmlak üçün icarə haqqından, həmçinin rezidentin və ya qeyri-rezidentin Azərbaycan Respublikasındakı daimi nümayəndəliyinin ödədiyi və ya onun adından ödənilən royaltidən gəlir 13.2.16-cı maddəyə uyğun olaraq Azərbaycan mənbəyindən əldə edilmişdirsə, ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulur.

Qanunvericiliyin tələblərinə əsasən, qeyri-rezidentin Məcəllənin 13.2.16-cı maddəsi ilə Azərbaycan mənbəyindən əldə olunan gəliri kimi müəyyən edilən və qeyri-rezidentin Azərbaycan Respublikasının ərazisindəki daimi nümayəndəliyinə aid olmayan icarə haqları və royalti şəklində əldə etdiyi gəlirindən ödəmə mənbəyində xərclər çıxılmadan 124-cü maddəyə uyğun olaraq vergi tutulur (Məcəllənin 125.1.7 maddəsi).

Qeyd olunanlarla yanaşı, Məcəllənin 168.1.5-ci maddəsinin müddəalarına əsasən, patentlərin, lisenziyaların, ticarət markalarının, müəlliflik və digər analoji hüquqların mülkiyyətə verilməsi və ya güzəşt edilməsi, işlərin və ya xidmətlərin alıcısının yerləşdiyi və ya qeydiyyatda olduğu, təsis edildiyi, işlər və ya xidmətlər alıcının daimi nümayəndəliyi ilə bilavasitə bağlı olduğu halda, həmin daimi nümayəndəliyin olduğu yerdə ƏDV-yə cəlb edilir.

Beləliklə, ticarət nişanından istifadə etmək hüququnun verilməsinə görə ödəniş royalti kimi qeyri-rezidentə ödənildiyi halda, Məcəllənin 124-cü maddəsinə uyğun olaraq həmin ödənişdən ödəmə mənbəyində 14 faiz dərəcə ilə vergi tutulmalı və göstərilən xidmətlərin tam dəyərinə Məcəllənin 168-ci maddəsi ilə müəyyən edilmiş qaydada ƏDV hesablanıb dövlət büdcəsinə ödənilməlidir.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya s.musayeva@taxes.gov.az elektron poçt ünvanına göndərə bilərsiniz.

# Bank sektoruna maliyyə dəstəyi artırılır

Devalvasiyadan sonra ölkədəki kommersiya banklarının manat ehtiyatlarının azalması Mərkəzi Bankın (MB) kommersiya banklarına maliyyə dəstəyi artırması zərurətini meydana çıxarıb. Artıq vətəndaşların böyük əksəriyyəti banklardakı əmanətlərini dollara konvertasiya edib. 2015-ci il mayın 1-nə Azərbaycan banklarındakı 7,7 milyardlıq əmanətin 5 milyardı dollar olub, cəmi 2,7 milyard vəsait manatla yerləşdirilib. Halbuki yanvar ayında manatla olan əmanətlərin məbləği 4,5 milyard idi...

Ölkə banklarının kredit vermək üçün pul resurslarının azalmasına qarşı tədbir görmək üçün Mərkəzi Bank tərəfindən kommersiya banklarına manatla vəsait ayrılmasına qərar verilib. Qərara əsasən, yaxın günlərdə ehtiyat fonddan banklara pul ayrılacaq və onlar bu pulu ancaq kreditləşməyə sərf etməli olacaqlar. İqtisadiyyatın istehsal və xidmət bölmələrində çalışan sahibkarlara, mülkiyyətçilərə ayrılacaq vəsaitlərə ciddi nəzarət ediləcək, ayrılan vəsaitin valyuta mübadiləsinə yönləndirilməsinə icazə verilməyəcək: əks halda, MB inzibati vasitələrdən istifadə etməklə banklara qarşı müvafiq addımlar atmalı olacaq.

**2015-ci il mayın 1-nə Azərbaycan banklarındakı 7,7 milyardlıq əmanətin 5 milyardı dollar olub, cəmi 2,7 milyard vəsait manatla yerləşdirilib**

Mərkəzi Bank 2015-ci ilin ikinci yarısında iqtisadiyyatın kredit və likvidlik ehtiyaclarının çevik ödənilməsini təmin edəcəyini bildirib. Bunun üçün iqtisadiyyata pul təklifinin məqbul səviyyəsi təmin olunacaq, sistem əhəmiyyətli banklar və real sektor müəssisələrinin fəaliyyətini stabilləşdirmək üçün pul siyasəti alətlərindən istifadə ediləcəkdir. Real sektorun dəstəklənməsinin yeni likvidlik mexanizmləri yaradılacaq, faiz dərəcələrinin azalması istiqamətində tədbirlər həyata keçiriləcəkdir.

İqtisadçı Oqtay Məmmədovun sözlərinə görə, mövcud qərar bank sektoruna maliyyə dəstəyi kimi səciyyələndirilə bilər. MB bir müddət əvvəl də banklara dəstək xarakterli qərar qəbul etmişdi. Devalvasiyadan sonra - martın əvvəllərində kommersiya banklarının açıq valyuta mövqeyi üzrə limitin tətbiqinə icazə verilib və bu addım banklara özlərini reabilitasiya etməyə imkan yaradıb. Bundan əlavə, MB-nin mart ayında depozitlər üzrə məcburi ehtiyat normasını 2 faizdən 0,5 faizə endirilməsi barədə qərarı da bank sektoruna zəruri likvidlik dəstəyi vermək məqsədi daşıyırdı. Depozitlər üzrə məcburi ehtiyatlar normasının 4 dəfə azaldılması banklara kredit təklifləri səviyyəsini nəinki qoruyub saxlamaq, hətta onu artırmaq üçün imkan yaradıb. Bundan başqa, Azərbaycan Əmanətlərin Sığortalanması Fondunun qorunan əmanətlər üzrə faiz dərəcəsinin maksimal həddini 9%-dən 12%-ə qaldırılması bu sahədə sabitliyə zəmin yaradıb. Bu tədbirlər bankların pul resurslarının sabit qalmasına yönəldilmişdi.

İqtisadçı Aydın Hüseynov bildirir ki, banklara maliyyə dəstəyinin göstərilməsi kiçik və orta sahibkarlığın kreditlə təminatının davamlılığına hesablanmış siyasətdir. Hazırda dövlətin birbaşa kredit resursları hesabına sahibkarlığın maliyyələşdirilməsi istehsalın və xidmət sektorunun inkişafı üçün kifayət etmir. İl ərzində dövlət xətti ilə sahibkarlara verilən 200 milyon manatdan artıq kredit ümumi ehtiyacın 40%-ni təşkil edir. Bu prosesdə əsas rol oynamalı olan bankların kredit ayırmaları kifayət qədər deyil. Son proseslərdən sonra özəl bankların sahibkarlığa maliyyə dəstəyini artırması üçün onların pul bazasının gücləndirilməsinə də ehtiyac yaranıb. Bu mənada, MB-nin ehtiyat fonddan banklara pul ayırmaq qərarı müsbət qiymətləndirilməlidir.

A.Hüseynov banklara maliyyə yardımının ölkəmizdə iqtisadi artıma və məşğulluğa müsbət təsir göstərəcəyini, maliyyə-bank sektorunda kreditləşmənin daha da aktivləşdirilməsinə, iqtisadiyyata kredit axınlarının yüksəldilməsinə töhfə verəcəyini bildirir. Bu kursun həyata keçirilməsi ölkənin bank sistemində rəqabət qabiliyyətinin və maliyyə sabitliyinin qorunması üçün məzənnə siyasətinin çevikliyini artırmağa stimul verəcək.

**ELBRUS**

# Nağdsız ödəniş şəbəkəsi genişləndirilir

*Azərbaycanda ilk dəfə keçirilən I Avropa Oyunları zamanı nağdsız ödənişlərin bütün obyektlərdə həyata keçirilməsinin təmin edilməsi üçün POS-terminalların quraşdırılması və onlardan istifadə qaydalarına əməl olunması diqqət mərkəzindədir.*

Ölkə Prezidentinin bu məsələ ilə bağlı hökumətə verdiyi tapşırıqlar Vergilər Nazirliyi tərəfindən də uğurla icra olunur. Nazirlik Mərkəzi Bank və kommersiya bankları ilə birlikdə ölkənin ticarət və xidmət sektorunda ödəmələrin nağdsız qaydada aparılması üçün müvafiq infrastrukturun qurulması istiqamətində bir sıra ciddi tədbirlər həyata keçirmişdir. Bununla bağlı Vergilər Nazirliyində yaradılmış xüsusi qərargah POS-terminal quraşdırılmalı olan obyektlərin siyahısını tam dəqiqləşdirmiş, həyata keçiriləcək proseslərin xəritəsini tərtib etmişdir. Qərargah üzvləri ilə yanaşı, yerli vergi orqanlarında bu işlərlə məşğul olacaq məsul şəxslər müəyyən edilmiş, əlavə işçi qüvvəsi cəlb olunmuşdur.

Görülən tədbirlər nəticəsində Bakıda, eləcə də ölkəmizin digər şəhər və rayonlarında, xüsusilə I Avropa Oyunları yarışlarının keçirildiyi 18 arena və onların ətrafındakı təsərrüfat subyektlərində yerləşən müxtəlif ticarət, əyləncə, ictimai-iaşə və başqa obyektlərdə POS-terminalların quraşdırılması başa çatdırılmışdır. Beləliklə Bakı şəhərində 53 min 700, Mingəçevir şəhərində isə 1929 ədəd POS-terminal quraşdırılmışdır. Bütövlükdə, ölkədə quraşdırılmış POS-terminalların sayı 86 minə çatmışdır ki, onların 62,4%-i Bakı şəhərinin, 37,6%-i isə digər şəhər və rayonların payına düşür.

I Avropa Oyunlarının keçirildiyi arenalar və onların ətrafında yerləşən obyektlərdə POS-terminallardan istifadə qaydalarına ciddi nəzarətin təşkili üçün həmin ərazilərə vergi orqanlarının əməkdaşları təhkim edilmişdir.

Qeyd edək ki, vergi ödəyicilərinə onlara məxsus obyektlərdə quraşdırılmış POS-terminallardan istifadə vərdişlərinin aşılanması, eləcə də nağdsız ödənişlərin əlverişliliyi və üstünlükləri barədə geniş izahat və təbliğat işlərinin həyata keçirilməsi üçün Vergilər Nazirliyi tərəfindən «POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair tövsiyələr» hazırlanmışdır. Ötən il bu tövsiyələrə uyğun olaraq, 22500-dən çox şəxs fərdi qaydada məlumatlandırılmışdır. Bu il də əhali arasında aparılan maarifləndirmə işləri genişləndirilir, məlumatlandırmada əyani vəsaitlərə üstünlük verilir.

Ölkədə fəaliyyət göstərən banklar da POS-terminallardan istifadənin əhali üçün iqtisadi cəhətdən daha sərfəli olması ilə əlaqədar konkret tədbirlər görür. Mərkəzi Bankın məlumatında bildirilir ki, I Avropa Oyunları zamanı ölkədə quraşdırılmış bankomat və POS-terminal şəbəkəsinin fasiləsiz və dayanıqlı fəaliyyətinin təmin olunması üçün bank rəhbərlərinə xüsusi tapşırıqlar verilmiş, aşağıdakı istiqamətlərdə tədbirlərin həyata keçirilməsinin zəruriliyi diqqətə çatdırılmışdır:

- bankomat şəbəkəsinin kifayət qədər milli və xarici valyutada nağd pul vəsaitləri ilə təchiz edilməsi və həmçinin, texniki baxımdan daim işlək vəziyyətdə olmasının müntəmadi olaraq monitorinqinin aparılması;
- tədbirin keçirildiyi idman kompleksləri və ətraf ərazilərdə, həmçinin şəhər mərkəzində yerləşən təsərrüfat subyektlərində işləyən satıcıların POS-terminallardan istifadə qaydaları barədə məlumatlandırılması;
- tədbirin keçirildiyi idman kompleksləri və ətraf ərazilərdə, həmçinin şəhər mərkəzində yerləşən təsərrüfat subyektlərində quraşdırılmış POS-terminalların daim işlək vəziyyətdə olması üçün monitorinqin aparılması.

**Bütövlükdə, ölkədə quraşdırılmış POS-terminalların sayı 86 minə çatmışdır ki, onların 62,4%-i Bakı şəhərinin, 37,6%-i isə digər şəhər və rayonların payına düşür**



Bunlardan əlavə, həyata keçiriləcək tədbirlərin koordinasiya olunması məqsədilə hər bir kommersiya bankında rəhbərlik səviyyəsində məsul şəxslərin ayrılması tapşırılmışdır.

Onu da qeyd edək ki, əhali arasında bank ödəniş kartlarının sayı əhəmiyyətli dərəcədə artaraq hazırda 6 milyona çatmışdır. Mövcud POS-terminalların da sayının kifayət qədər artması həm regionlarda, həm də paytaxtda nağdsız ödəniş sisteminə keçmək üçün münbit şəraitin yarandığını deməyə əsas verir. Ötən il quraşdırılmış POS-terminalların sayında regionların payı daha çox olmuşdur: bu sahədə artım Bakı şəhəri üzrə 1,9 dəfə olduğu halda, regionlarda 7,1 dəfə təşkil etmişdir.

**Rəşad SADIQOV**

# Hedcinq: vəsaitlərin itkidən qorunması

*İtkilərlə bağlı riskin minimallaşdırılmasına yönəldilmiş tədbir və ya ticarət strategiyası əməliyyatlarının müxtəlif növləri mövcuddur. Riskə səbəb olan faktorların - neftin, məzənnənin, səhmlərin qiymətindəki dəyişmələri nəzərə alaraq aparılan bu əməliyyatlardan biri də hedcinqdir.*

İqtisadçı ekspert Rəşad Əliyev ticarət strategiyasında risklərdən qorunma tədbirlərinin uzaq keçmişdə yarandığını və kənd təsərrüfatı ilə bağlı olduğunu bildirir: «Fermerlər mövsümün başlanğıcında gələcəkdə satacaqları məhsulların ucuzlaşmaqdan qorunması üçün onları qabaqcadan, əkin vaxtı satırdılar. Məhsulları iri alıcılar əldə edir, bununla da özlərini həmin məhsulların gələcəkdə bahalaşmasından sığortalayırdılar. Nəticədə həm satıcı, həm də alıcı gələcəkdə baş verəcək qiymət dəyişməsindən özlərini qorumuş olur və alqı-satqı əməliyyatını qabaqcadan müəyyən edilmiş qiymətlə razılaşdırırdılar. Bununla da satıcı məhsulun qiymətinin düşməsindən, alıcı isə artmasından sığortalanırdı. Bu əməliyyat həyata keçiriləndən sonra qiymət dəyişikliyinin baş verdiyi halda isə tərəflərdən biri uduzur, o biri udurdu: məhsulun qiyməti qalxanda məhsulu qabaqcadan ucuz qiymətə satmış fermer itirir, alıcı isə qazanırdı. Qiymət düşəndə tərsinə olurdu. Ancaq buna baxmayaraq, əqdlər bağlanırdı, çünki tərəflər məhz uduzmaqdan sığortalanmaq istəyirdilər. Əməliyyatın «fəlsəfə»si də elə bundan ibarətdir: tərəflər özlərini zərərdən qoruyurdular və bu zaman qazanc güdülmürdü. İlk «forvard» əməliyyatları bu cür yaranıb və indinin özündə də risklərdən əsas sığortalanma üsullarından biri olaraq qalır».

Maliyyə bazarları inkişaf etdikcə fyuçers (forvard müqavilələrinə bənzər, ancaq birjada həyata keçirilir) və opsionlar kimi yeni alətlər meydana gəldi. Ancaq razılaşmaq lazımdır ki, hazırda bu maliyyə alətləri təkcə ticarət strategiyalarında risklərin azaldılmasında yox, həm də qazanc əldə edilməsi məqsədləri üçün istifadə olunur. Bunlar həm də hedcinqin əsas alətləri hesab edilir.

R.Əliyev onu da vurğulayır ki, əvvəlki misalda ticarət strategiyasında risklərin azaldılması üçün bir əməliyyat həyata keçirilirdisə, hedcinq zamanı daha bir əməliyyat aparılır: «Məsələn, ixracla bağlı ticarət əməliyyatlarını nəzərdən keçirək. Avropaya avro ilə məhsul satan şirkət öz vəsaitlərini dollarda saxlayır və avronun dollara olan məzənnəsinin dəyişməsi nəticəsində yarana biləcək valyuta risklərinin qarşısını almaq üçün hedcinq qərarını verir. Bunun üçün ixracatçı pulun alınma tarixinə birja vasitəsilə avronun dollara olan məzənnəsi üzrə zəruri həcmdə fyuçers müqavilələrini satır. Əgər pulun alınma tarixinə avronun məzənnəsi düşsə, müəssisə dollara konvertasiya zamanı ziyana düşəcək, lakin birja vasitəsilə satdığı fyucers müqaviləsindən eyni məbləğdə qazanc əldə edəcək. Yəni bir əməliyyat üzrə yaranan zərər digər əməliyyat üzrə yaranan gəlir ilə kompensasiya olunacaq. Bəs əks proses baş versə, yəni avronun məzənnəsi dollara nisbətdə artsa necə? Bu halda müəssisə dollara konvertasiya zamanı əlavə gəlir əldə edəcək. Ancaq birja vasitəsilə satdığı fyuçers müqaviləsindən eyni məbləğdə zərər yaranacaq ki, bu da gəlirdə neytrallaşır. Göründüyü kimi, birinci halda hedcinq müsbət nəticə verir və avronun məzənnəsinin düşməsindən yaranan zərər neytrallaşır. İkinci halda isə ixracatçı əlavə qazancdan məhrum olur, ancaq müəssisə zərərə düşmür. Məhiyyət bundan ibarətdir ki, mümkün zərərdən qorunmağa zəmanət yaranır».

Beləliklə, hedcinq əməliyyatları sayəsində özümüzü qiymət dəyişikliyi riskindən sığortalamış oluruq. Lakin məntiqlə yanaşdıqda, riskləri azaltmaqla potensial gəliri də azaltmış oluruq, yəni potensial zərərlərdən qorunmaqla potensial gəliri də əldən veririk. İnvestisiyanın əsas qaydasını xatırlayaq: risk nə qədər çoxdursa, gəlir də bir o qədər çox olar və əksinə.

Beləliklə, hedcinq - gəlirlərin artırılmasına deyil, zərərlərin azaldılmasına istiqamətlənib və bu, əməliyyat həyata keçirilən aktivin gələcəkdə qiymətinin dəyişməsindən sığortalanmaq üçün əlavə maliyyə əməliyyatlarının aparılmasıdır. Həyata keçirilən əlavə əməliyyat qiymət dəyişməsi nəticəsində yarana biləcək zərəri neytrallaşdırır. Hedcinq əməliyyatları, əsasən, fyuçers və opsionların vasitəsi ilə həyata keçirilir.

**Fəxriyyə İKRAMQIZI**



# Ölkə iqtisadiyyatında artım davam edir

Azərbaycanda fəaliyyət göstərən müəssisə, təşkilat və fiziki şəxslər tərəfindən 2015-ci ilin yanvar-may aylarında 21,3 milyard manatlıq və ya ötən ilin müvafiq dövründəkindən 5,3% çox ümumi daxili məhsul istehsal edilmişdir. Əlavə dəyərin 36,4%-i sənayedə, 13,7%-i tikinti kompleksində, 13,7%-i ticarət, turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri sahələrində, 6,1%-i nəqliyyatda, 2%-i rabitədə, 3,3%-i kənd təsərrüfatında, 15,7%-i digər sahələrdə yaradılmışdır. Məhsula və idxala xalis vergilər ÜDM-in 9,1%-ni təşkil etmişdir. 2014-cü ilin eyni dövrü ilə müqayisədə əlavə dəyər qeyri-neft sektorunda 7,6%, neft-qaz sektorunda isə 2,4% artmışdır. Sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 2015-ci ilin yanvar-may aylarında 10,8 milyard manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,7% çox məhsul istehsal edilmişdir. Mədənçıxarma bölməsində məhsul istehsalı 2,5%, o cümlədən əmtəəlik qaz hasilatı 11,5% artmış, neft hasilatı isə 0,9% azalmışdır. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 12,4% artmışdır. İstehsal edilmiş məhsulun 99,2%-i istehlakçılara göndərilmiş, əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında 1 iyun 2015-ci il vəziyyətinə 376,4 milyon manatlıq hazır məhsul olmuşdur.

*2015-ci ilin yanvar-may aylarında əsas kapitala 6416,3 milyon manat məbləğində, yaxud ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,7% çox vəsait yönəldilmişdir*

2015-ci ilin yanvar-may aylarında əsas kapitala 6416,3 milyon manat məbləğində, yaxud ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,7% çox vəsait yönəldilmişdir. İstifadə olunmuş vəsaitin 4151,1 milyon manatı və ya 64,7%-i məhsul istehsalı obyektlərinin tikintisinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitin 3791 milyon manatını daxili vəsaitlər təşkil etmişdir. Bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuş vəsait 2014-cü ilin eyni dövrü ilə müqayisədə 12% artaraq 4933,8 milyon manat təşkil etmişdir. 2015-ci ildə inşaat işlərinin aparılması üçün dövlət büdcəsindən 5654,7 milyon manat məbləğində vəsait ayrılması nəzərdə tutulmuş və ötən beş ay ərzində həmin vəsaitin 1188,2 milyon manatından istifadə edilmişdir. Müxtəlif mənbələrdən ayrılmış vəsaitlər hesabına 723,8 min kvadrat metr yaşayış evləri, növbədə 180 nəfəri qəbul etmək imkanına malik ambulatoriya-poliklinika müəssisələri, 4548 şagird yerlik ümumtəhsil məktəbləri, 200 yerlik məktəbəqədər təhsil müəssisələri, 280 yerlik klub və mədəniyyət evləri, Bakı şəhərində 110 kilovoltluq «Ağ şəhər-1», «Həzi Aslanov», «Kürdəxanı» və 35 kilovoltluq 7 elektrik yarımstansiyası, Bakı Olimpiya Stadionu, Su İdmanı Sarayı, Atıcılıq Mərkəzi, Velopark, Avropa Oyunları Parkı, Atletlər və Media kəndləri, Bakı Konqres Mərkəzi, «Bulvar Hotel» oteli, «Dalga Beach-Aqua Park» ailəvi istirahət mərkəzi, Beynəlxalq Avtovağzal ərazisindən Bakı dairəvi yolunu birləşdirən körpü və Stend Atıcılığı Kompleksinə gedən yol, Sumqayıt şəhərində Beton məmulatı zavodu və s. obyektlər istifadəyə verilmişdir.

İnformasiya və rabitə müəssisələrinin əhaliyə, idarə və təşkilatlara göstərdikləri xidmətlərin həcmi ötən ilin müvafiq dövrünə nisbətən 10,6% artaraq yanvar-may aylarında 653,2 milyon manat təşkil etmişdir. Pərakəndə ticarət şəbəkəsindən əhaliyə 9531,6 milyon manatlıq istehlak malları satılmış, xidmət müəssisələri tərəfindən 2615,6 milyon manatlıq pullu xidmət göstərilmişdir. 2014-cü ilin yanvar-may ayları ilə müqayisədə əmtəə dövriyyəsi 9,7%, pullu xidmətlərin həcmi isə 5,4% artmış, ticarət şəbəkəsində 4777,3 milyon manatlıq qida məhsulları, içki və tütün məmulatı, 4754,3 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır. Aprel ayı ilə müqayisədə may ayında istehlak mallarının qiymətləri və xidmət tarifləri 0,6%, o cümlədən ərzaq məhsullarının qiymətləri 1,5% ucuzlaşmış, qeyri-ərzaq mallarının qiymətləri 0,2%, xidmət tarifləri isə 0,1% bahalaşmışdır. 2014-cü ilin müvafiq dövrünə nisbətən cari ilin yanvar-may aylarında istehlak mallarının qiymətləri və xidmət tarifləri 3,4%, o cümlədən ərzaq məhsullarının qiymətləri 5,2%, qeyri-ərzaq mallarının qiymətləri 2,7%, xidmət tarifləri isə 1,4% artmışdır. Yanvar-aprel aylarında muzdla işləyənlərin orta aylıq əməkhaqqı 2014-cü ilin eyni dövrü ilə müqayisədə 3,6% artaraq 452,3 manat təşkil etmişdir. Həmin dövr ərzində ölkə əhalisinin gəlirləri 5,8%z artaraq 16,2 milyard manata çatmışdır. Gəlirlərin 73,9%-i son istehlaka, 9,6%-i vergilər, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 14%-i isə əmanətlərin və kapitalın artırılmasına sərf edilmişdir. Maliyyə Nazirliyinin məlumatlarına əsasən 2015-ci ilin yanvar-aprel aylarında dövlət büdcəsinə 5,4 milyard manat vəsait daxil olmuş, büdcədən 6,2 milyard manat vəsait xərclənmiş, büdcənin kəsiri ümumi daxili məhsulun 4,9%-nə bərabər olmuşdur. Büdcə xərclərinin 3,3 milyard manatı iqtisadiyyatın inkişafına, 666,7 milyon manatı sosial müdafiə və sosial təminata, 578,2 milyon manatı isə təhsilə və səhiyyəyə yönəldilmişdir. 2015-ci il may ayının 1-nə kimi ölkənin maliyyə-kredit təşkilatları hüquqi və fiziki şəxslərə 20,6 milyard manat ekvivalenti məbləğində kredit ayırmışlar. Verilmiş kreditlərin həcmi 2014-cü il may ayının 1-i ilə müqayisədə 26,8% artmış, onun 77,8%-i və ya 16 milyard manatı uzunmüddətli olmuşdur. Kreditlərin 1,3 milyard manatının, yaxud 6,1%-nin ödəmə vaxtı keçmişdir. Əhalinin banklardakı əmanətlərinin məbləği məzənnə korreksiyası nəzərə alınmaqla ötən ilin eyni dövrü ilə müqayisədə 2015-ci il may ayının 1-nə 17,5% artaraq 7,7 milyard manata çatmışdır.

**RƏŞAD**

# Sosial yardımların təyinatında şəffaflıq vacib şərtdir

Orta aylıq gəliri özlərindən asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarı məcmusundan aşağı olan aztəminatlı ailələr ünvanlı dövlət sosial yardımları almaq hüququna malikdirlər. Lakin son illər yardım alan ailələrin sayının azalması müşahidə olunur ki, bu da ilk növbədə ölkə vətəndaşlarının həyat səviyyəsinin mütəmadi yaxşılaşması və ünvanlı dövlət sosial yardımlarının təyinatında ünvanlılıq və şəffaflıq prinsiplərinin təmin olunması istiqamətində aparılan işlərin nəticəsi kimi qiymətləndirilə bilər.

*Yeni sistem ünvanlı yardımların təyinatında məmur-vətəndaş ünsiyyətinin tam aradan qalxmasına, aztəminatlı şəxslərin ünvanlı sosial yardım sistemi üzrə sürətli və rahat, şəffaf xidmətlərə çıxış imkanı qazanmalarına səbəb olacaq*

Ölkə başçısının 23 fevral 2015-ci il tarixli fərmanının icrası ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) tərəfindən ünvanlı dövlət sosial yardımı üçün müraciətin edilməsi və yardımların təyin olunması prosesinin elektron əsaslar üzərində avtomatlaşdırılmış sisteminin yaradılması işləri davam etdirilir. Bu yeni sistem ünvanlı yardımların təyinatında məmur-vətəndaş ünsiyyətinin tam aradan qalxmasına, aztəminatlı şəxslərin ünvanlı sosial yardım sistemi üzrə sürətli və rahat, şəffaf xidmətlərə çıxış imkanı qazanmalarına səbəb olacaq. ƏƏSMN-in məlumatına görə, prezident fərmanının icrası istiqamətində nazirlik tərəfindən məqsədyönlü işlər davam edir, müvafiq tədbirlər planı əsasında işçi qrup fəaliyyət göstərir. Tədbirlər planında nəzərdə tutulmuş istiqamətlər üzrə işlər mərhələli şəkildə və müəyyən edilmiş müddətlər ərzində, vaxtlı-vaxtında, heç bir gecikmə olmadan yerinə yetirilir. Görülmüş işlər nəticəsində ünvanlı dövlət sosial yardımının alınması üçün elektron müraciət forması, e-müraciətə baxılması üçün aidiyyəti qurumların informasiya resurslarından əldə ediləcək arayış və məlumatların siyahısı və s. artıq hazırdır.

Ünvanlı dövlət sosial yardım sisteminin avtomatlaşdırılması üçün lazımi texniki infrastrukturun ən vacib komponentləri olan proqram təminatları üzrə funksional tələblər də hazırlanıb. Bu kateqoriyadan olan vətəndaşlara elektron formada müraciət etmək imkanı yaradılması üçün «Elektron hökumət» portalında müvafiq proqram təminatı üzrə funksional tələblər hazırlanıb. ƏƏSMN-in və nazirlik yanında Dövlət Sosial Təminat Xidmətinin aparatının analitik təhlillər aparması, rayon (şəhər) əhalinin sosial müdafiəsi mərkəzlərində işçilərin avtomatlaşdırılmış iş yerinin qurulması məqsədilə hazırlanacaq proqram təminatları üzrə də funksional tələblər müəyyən edilib.

Nazirliyin məlumatında bildirilir ki, ünvanlı sosial yardımın alınması üçün müraciət etmiş ailələrin maddi-məişət şəraitinin müayinəsi və nəticələrinin real vaxt rejimində Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminə (VEMTAS) ötürülməsi, müraciətlərdəki məlumatların, müayinənin nəticələrinin və aidiyyəti qurumlardan elektron formada əldə edilən məlumatların təhlil olunması üçün də proqram təminatı yaradılır. Bütün proqram təminatları üzrə funksional tələblər müzakirə edilərək təkmilləşdirilir və nazirliyin kollegiyasında təsdiqləndikdən sonra tətbiqinə başlanacaq.

Onu da bildirək ki, «Ünvanlı dövlət sosial yardımı haqqında» Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliyə əsasən, bu ilin mart ayının 17-dən sosial yardım - onu almaq üçün müraciət edilən ayın 1-dən etibarən 1 il müddətinə deyil, 2 il müddətinə təyin olunur.

**AYTƏN**

# «Elektron hökumət»dən istifadə imkanları artır

*«Elektron hökumət» vətəndaş və e-hökumət arasında əlaqələrin qarşılıqlı xidmət anlayışına əsaslanaraq həyata keçirilən texnoloji prosesdir. Son illər inkişaf etmiş ölkələrdə demokratiyanın inkişafına təsir edən amillərdən biri də «Elektron hökumət»in formalaşdırılması hesab edilir.*

E-hökumət müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və elektron xidmətlərin göstərilməsinə şərait yaradır. Burada əsas məqsəd xidmətlərin göstərilməsi üçün dövlət qulluqçuları və vətəndaşlar arasında olan «məsafəni» maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Buna nail olmaq üçün dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsi vacibdir. Beynəlxalq təcrübəyə əsasən, vətəndaşların dövlət orqanları ilə təmaslarının daha rahat və münasib təşkili üçün dövlət orqanlarının göstərdiyi elektron xidmətlərin bir məkanda cəmləşdirildiyi «Elektron hökumət» portalı «bir pəncərə» prinsipi əsasında yaradılır.

«Elektron hökumət» quruculuğu istiqamətində ilk addımlar sosial xidmətlərin elektronlaşması və «bir pəncərə» prinsipi ilə portalda birləşməsi üzərində cəmlənmişdisə, bu gün artıq təqdim olunan xidmətlərin sadələşdirilməsi, eləcə də istifadəçi imkanlarının artırılması istiqamətində işlər aparılır və portalın sosial əhəmiyyətli funksiyalarının artırılmasına xüsusi önəm verilir.

İyunun 9-da «Elektron hökumət» portalının operatoru - Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin əməkdaşları ilə Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri arasında görüş keçirilmişdir. Görüşdə Mədəniyyət və Turizm Nazirliyinin «Texniki təchizat və proqram təminatı» şöbəsinin müdiri Qabil Abbasov, Məlumat Hesablama Mərkəzinin «Yeni texnologiyalar» şöbəsinin müdiri Cəmşid Naxçıvanski, «Veb proqramlaşdırma» şöbəsinin müdiri Emin Novruzov və digər mütəxəssislər iştirak etmişlər.

Tədbirdə Mədəniyyət və Turizm Nazirliyinin veb səhifələrində təqdim etdiyi elektron xidmətlərin «Elektron hökumət» portalına inteqrasiyası zamanı təhlükəsizlik, istifadə üsullarının portala uyğunlaşdırılması və səmərəliliyinin artırılması məsələləri müzakirə edilmişdir. Xidmətlərin portala inteqrasiyası üçün tələb olunan texniki şərtlər barədə MHM-in əməkdaşları tərəfindən ətraflı məlumat verilmişdir.




Görüş zamanı o da qeyd edilmişdir ki, may ayında «Elektron hökumət» portalı üzərindən elektron xidmətlərindən ən çox istifadə olunan dövlət qurumları məlum olub. Həmin siyahıya Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, eləcə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi daxildir.

Ötən ay Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının təqdim etdiyi «Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu», «Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi», «Namizədlərə imtahana buraxılış vəsiqələrinin internet vasitəsilə verilməsi», «Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu» elektron xidmətlərdən ümumilikdə 713.951 dəfə istifadə edilib.

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin «Mobil nömrə daşınması xidməti vasitəsilə digər şəbəkəyə daşınmış nömrələr barədə məlumatın verilməsi», «Telefon nömrəsi üzrə axtarış», «Mobil cihazların qeydiyyatdan keçirilməsi», «Mobil cihazların IMEI kodunun yoxlanılması» və «Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi» xidmətləri üzrə 246.392 istifadə sayı qeydə alınıb.

Dövlət Sosial Müdafiə Fondunun ən çox istifadə olunan elektron xidmətlər sırasında yer alan «Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi», «Uşağın üç yaşı tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi», «Hamiləliyə və doğuma görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi» və «Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi» xidmətlərindən vətəndaşlar 219.291 dəfə faydalanıblar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi «Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi», «Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi», «İş yerinə dair arayış» elektron xidmətlərinə 167.587 dəfə müraciət olunub.

**Fəxriyyə İKRAMQIZI**

# Yeni xidmət istifadəyə verilib

***Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin «Aztelekom» İstehsalat Birliyi (İB) yeni bir xidmətin - «171» səsli mesaj xidmətinin tətbiqinə başlayıb.***

Birlikdən verilən məlumata görə, xidmətdən istifadə üçün abunəçi «171» qısa nömrəsinə zəng etməlidir. Operatorun təlimatına əsasən, səsli mesaj göndərmək üçün 1, səsli mesajı dinləmək üçün 2 düyməsindən istifadə olunur. Mesaj göndərmək üçün qayda belədir: 1 düyməsini seçdikdən sonra mesaj göndərilməli, eyni zamanda, nömrə və diyez (#) düyməsi yığılmalıdır. Siqnal səsindən sonra məlumat verilir və yenidən dyez düyməsi aktivləşdirilir. Qarşı tərəf telefonda 171 nömrəsini yığıb 2 düyməsini seçməklə mesajı dinləyir.

Yeni xidmətdən bütün mobil operatorlar, CDMA və stasionar telefon abunəçiləri istifadə edə bilərlər. Xidmətin ən böyük özəlliklərindən biri mobil operatorlardan da zəng etməklə bu xidmətə qoşulmaqdır. Yəni mobil operatorlardan ev telefonlarına və ev telefonlarından mobil operatorlara zəng etməklə xidmətdən istifadə etmək olar. Eyni zamanda, mobil nömrə abunəçiləri də 171 yığmaqla bu xidmətdən istifadə edə bilərlər.

Elektron sistem sayəsində göndərilən səsli mesajları sonradan dinləmək mümkündür. Abunəçi evdə olmadıqda sonradan telefonuna gələn mesajları ardıcıl dinləyərək onu kimin axtardığını öyrənə bilər. Bir səsli mesajın qiyməti 5 qəpikdir.

**FƏXRİYYƏ**

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planında əks etdirilən bütün mühasibat hesablarında (hazırda 111№-li, 112№-li hesablarda) aparılacaq əməliyyatlara dair ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdiririk. Bir daha diqqətinizə çatdırmaq istəyirik ki, torpaq, tikili və avadanlıqlar sinfinə aid olan uzunmüddətli aktivlərin hesabat tarixinə qiymətləndirilməsi vacibdir və bu, qanunvericiliyin tələbidir. Mühasiblərə tövsiyə olunur ki, yenidənqiymətləndirmə modellərindən istifadə etsinlər.

Yenidənqiymətləndirmə ilə bağlı verilən ikili yazılışlar üzrə bəzi məqamlar nəzərdən qaçırılmamalıdır. Aydındır ki, qiymətləndirmə nəticəsində torpaq, tikili və avadanlıqların balans dəyəri arta, azala və ya əhəmiyyətli dərəcədə dəyişməyə (nə arta, nə də azala) bilər. Hesabat tarixinə aktivin balans (qalıq) dəyəri, yəni ilkin dəyəri ilə yığılmış amortizasiya dəyəri arasındakı fərq həmin aktivin həmin tarixə yenidən qiymətləndirilmiş ədalətli dəyərindən əhəmiyyətli dərəcədə fərqlənməzsə (təxminən bu kənarlaşma 10%-dək qəbul edilə bilər), aktiv balans (qalıq) dəyəri ilə maliyyə hesabatlarında təqdim edilə bilər. Lakin torpaq, tikili və avadanlıqların yenidənqiymətləndirmə nəticəsində balans dəyəri artarsa və ya azalarsa, aşağıda göstərilənlər nəzərə alınmalıdır. Sual əsasında izahlara başlayaq.

***1. Yenidənqiymətləndirmə nəticəsində yaranan müsbət artımlar üzrə məbləğlər tam olaraq hansı halda mənfəət və zərər haqqında hesabatda gəlir kimi tanına bilər, yəni «yenidənqiymətləndirmədən gəlir» başlığı altında 611 saylı «sair əməliyyat gəlirləri» hesabının kreditində uçota alına bilər?***

Əvvəllər (əvvəlki hesabat dövrlərində) bu aktivin yenidən qiymətləndirilməsindən mənfi məbləğlər yaranmışdırsa və bu məbləğlər mənfəət və zərər haqqında hesabatda zərər kimi tanınmışdırsa, yəni «yenidənqiymətləndirmədən xərclər» başlığı altında 731 saylı «sair əməliyyat xərcləri» hesabının debetində uçota alınmışdırsa, əvvəllər 731 saylı hesabın debetində uçota alınan məbləğ qədər hazırkı qiymətləndirmə tarixində 611 saylı «sair əməliyyat gəlirləri» hesabının kreditində artım məbləği uçota alınır (MMUS 7, maddə 37). Yenidənqiymətləndirmə nəticəsində yaranan müsbət artımın tam məbləği o halda 611 saylı «sair əməliyyat gəlirləri» hesabının kreditində uçota alına bilər ki, artım məbləğ əvvəllər 731 saylı hesabın debetində uçota alınan məbləğdən çox olmasın. Çox olan hissə 331 saylı «yenidənqiymətləndirilmə üzrə ehtiyat» hesabının kreditində uçota alnacaqdır.

Əvvəllər azalma olub - 1000 manat
Dt 731 - Kt 111 = 1000 manat
Hazırda artma olub - 800 manat
Dt 111 - Kt 611 = 800 manat

***2. Yenidənqiymətləndirmə nəticəsində yaranan müsbət artımlar üzrə məbləğlər tam olaraq hansı halda kapital ehtiyatı kimi tanına bilər, yəni «kapital ehtiyatları» başlığı altında 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyat» hesabının kreditində uçota alına bilər?***

Əvvəllər (əvvəlki hesabat dövrlərində) bu aktivin yenidən qiymətləndirilməsindən mənfi məbləğlər yaranmamışdırsa və ya əvvəlki dövrlərdə hər hansı yaranan mənfi məbləğlər «yenidənqiymətləndirmədən xərclər» başlığı altında əvvəllər 731 saylı «sair əməliyyat xərcləri» hesabının debetində uçota alınmasına baxmayaraq, həmin məbləğlər üzrə bağlanmamış (yəni əvvəlki dövrlərdə də 611 saylı «sair əməliyyat gəlirləri» hesabının kreditində uçota alınmaqla bağlanmamış) məbləğlər qalmamışdırsa, hazırkı yenidənqiymətləndirmədən yaranan müsbət artımlar üzrə tam məbləğ 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyat» hesabının kreditində uçota alınır.

Əvvəllər hər hansı azalma olmamışdır, ona görə də hazırda baş vermiş artım - 800 manat

Dt 111 - Kt 331 = 800 manat

***3. Yenidənqiymətləndirmə nəticəsində yaranan müsbət artımlar üzrə tam məbləğin hansı halda bir hissəsi mənfəət və zərər haqqında hesabatda gəlir kimi tanına bilər, yəni 611 saylı «sair əməliyyat gəlirləri» hesabınn kreditində, qalan hissəsi isə kapital ehtiyatı kimi tanına bilər, yəni 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyat» hesabının kreditində uçota alına bilər?***

Əvvəllər (əvvəlki hesabat dövrlərində) bu aktivin yenidən qiymətləndirilməsindən mənfi məbləğlər yaranmışdırsa və bu məbləğlər əvvəllər mənfəət və zərər haqqında hesabatda zərər kimi tanınmışdırsa, yəni «yenidənqiymətləndirmədən xərclər» başlığı altında 731 saylı «sair əməliyyat xərcləri» hesabının debetində uçota alınmışdırsa, hazırkı tarixdə yenidənqiymətləndirmədən yaranan artım məbləğ əvvəllər 731 saylı hesabın debetində uçota alınan məbləğdən çox olduğu halda, hazırkı artım məbləğin əvvəllər 731 saylı hesabın debetində uçota alınan məbləğ qədər hissəsi hazırda 611 saylı «sair əməliyyat gəlirləri» hesabının kreditində, çox olan hissəsi isə hazırda 331 saylı «yenidənqiymətləndirmə üzrə ehtiyat» hesabının kreditində uçota alınır.

Əvvəllər azalma olub - 1000 manat
Dt 731 - Kt 111 = 1000 manat
Hazırda artma olub - 1200 manat
Dt 111 - Kt 611 = 1000 manat
Dt 111 - Kt 331 = 200 manat

# Kənd təsərrüfatında islahatlar bəhrəsini verir

Prezident İlham Əliyevin sərəncamı ilə 2015-ci il ölkəmizdə «Kənd təsərrüfatı» ili elan edilmişdir. Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi aqrar sahənin keyfiyyətcə yeni mərhələyə keçməsi ilə nəticələnmişdir. Xüsusilə qeyri-neft sektorunun inkişaf etdirilməsi baxımından kənd təsərrüfatı mühüm əhəmiyyət kəsb edir. Bu mənada, aqrar bölmədə həyata keçirilən islahatların informasiya təminatının yaxşılaşdırılması məqsədilə kənd təsərrüfatında baş verən proseslər barədə aktual məlumatların əldə olunmasını təmin etmək üçün ölkəmizdə kənd təsərrüfatının siyahıya alınması maraq doğurur. Bu il 1,3 milyondan çox müxtəlif təşkilati-hüquqi formalı təsərrüfat subyektlərində siyahıyaalma həyata keçiriləcək.



Nazirlər Kabinetinin qərarı ilə bu istiqamətdə işlər iyun ayının 1-dən 30-dək davam etdiriləcək. Kənd təsərrüfatının siyahıya alınmasına hazırlıq işlərinin aparılması, onun keçirilməsi, materialların işlənib yekunlaşdırılması və nəticələrinin nəşri bu sahədə zəngin təcrübəsi olan Dövlət Statistika Komitəsinə və yerli statistika orqanlarına həvalə edilmişdir. Siyahıyaalmanın həm müəssisə, həm də əhali kateqoriyası üçün nəzərdə tutulmuş 1 və 2 nömrəli sorğu vərəqələri əsasında aparılması nəzərdə tutulur. Sorğu vərəqələri hazırlanarkən BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və MDB Statistika Komitəsinin tövsiyələri, bir sıra dünya ölkələrinin bu sahədəki əməli təcrübələri və yerli xüsusiyyətlər nəzərə alınmışdır. Bu zaman təsərrüfatların mənsubiyyəti, torpaq mülkiyyəti, icarə münasibətləri, torpaqdan və gübrələrdən istifadə, gəlir mənbəyi, kənd təsərrüfatı bitkilərinin əkin sahələri, çoxillik əkmələrin növləri üzrə ağac və kolların sayı, tətbiq edilən suvarma üsulları, mal-qara və quşların cins və yaş tərkibinə görə mövcudluğu, göl və nohur balıqçılığı, bina və tikililərin, kənd təsərrüfatı texnikası və avadanlıqlarının mövcudluğu, işçi qüvvəsi və s. barədə geniş məlumatlar toplanılacaqdır. Hər bir təsərrüfat üzrə fərdi məlumatlar məxfi saxlanmaqla yalnız toplu, ümumiləşdirilmiş statistik məqsədlər üçün istifadə olunacaqdır.

Siyahıyaalmada əldə olunacaq nəticələrin aqrar sahədəki proseslərə uyğunluğunun təmin edilməsində istər müəssisə, istərsə də təsərrüfat rəhbərləri (və ya nümayəndələri) də məsuliyyət daşıyır: alınacaq nəticələr birbaşa onların cavabları ilə əlaqədar olduğundan, cavablar səmimi olmalı, hər hansı fakt gizlənilməməli və ya şişirdilməməlidir. Reallığı əks etdirən nəticələr aqrar sahənin inkişafı üzrə dövlət proqramlarının və digər müvafiq tədbirlərin keyfiyyətlə işlənib hazırlanmasına zəmin yaradacaq.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev «Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında» Qanunda dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 2013-cü il 22 noyabr tarixli Qanununun tətbiqi haqqında sərəncam imzalamışdır. Dəyişikliklərə əsasən, kənd təsərrüfatı məhsullarının istehsalçıları üçün vergi güzəştləri daha 5 il müddətinə uzadılmış və beləliklə, kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslər 2014-cü il yanvarın 1-dən başlayaraq 5 il müddətinə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən olunmuş torpaq vergisindən başqa, digər bütün vergiləri ödəməkdən azad edilmişlər.

**Rəşad SADIQOV**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Xidmət göstərilməsinin sənədləşdirilməsi

Audit zamanı aparılan müşahidələr onu deməyə əsas verir ki, hazırda müxtəlif xidmətlərin göstərilməsi fəaliyyətləri ilə məşğul olan bir çox təsərrüfat subyektləri həmin xidmətlərin həqiqiliyini təsdiq edən sənəd kimi, əsasən, hesab-faktura tərtib edir və bu sənədi də sifarişçiyə təqdim etməklə kifayətlənirlər. Lakin belə olan halda həm gəlirin tanındığı (debitor borcun yarandığı) vaxtın, həm də vergi tutulan vaxtın müəyyən edilməsində mübahisəli məqamların yaranması mümkündür.

Xidmət göstərən tərəf üçün bir sualın cavabı tam aydın olmalıdır: hansı halda və ya hansı anda xidmətlər göstərilmiş və ya qarşı tərəfdən xidmətlər qəbul edilmiş hesab edilir, sifarişçi debitor borcludurmu?

İlk növbədə, xidmətlər təqdim edən tərəfin xidmətlərin göstərilməsi haqqında standart müqavilə hazırlaması və sifarişçi tərəfindən baxılması və təsdiqlənməsi üçün təqdim etməsi məsləhət görülür. Uçotun və vergitutmanın düzgünlüyünün təmin olunması məqsədilə xidmət müqavilələrində, həmçinin, aşağıda göstərilənlər barədə aydın məzmunların əks etdirilməsinə diqqət yetirilməlidir:

- xidmətin aydın və tam adı;
- xidmətin göstərildiyi yer;
- xidmətin ölçü vahidi;
- xidmətin miqdarı;
- xidmətlərin göstərilməsi müddətləri;
- xidmətin nəticələri;
- xidmətin nəticələrinin rəsmiləşdirilməsi (aktın tərtib olunması);
- xidmətin nəticələrinin təhvil-qəbulu (komissiya vasitəsilə və ya təkbaşına aktı təsdiqləməklə qəbul etmək);
- xidmətin dəyərinin ödənilməsi.

Burada əsas məsələ xidmətlərin təhvil-qəbuludur. Bəs hansı sənəd bunu daha düzgün təsdiq edir? Hər bir sənəd konkret bir əməliyyatın baş verdiyini təsdiq edir və ya hər bir əməliyyatı təsdiq edən bir aidiyyəti sənəd vardır. Həmçinin, belə sənəd bütün subyektlər üçün eyni mənaya, məntiqə və təsdiqedici xüsusiyyətə malik olmalıdır. Eyni sənəd növünün subyektlər arasında fərqli mənalarda qəbul edilməsi çaşqınlıq yarada bilər.

Qeyd edildi ki, hazırda təsərrüfat subyektləri göstərdikləri xidmətlərin həqiqiliyini təsdiq edən sənəd kimi qarşı tərəfə əsasən hesab-faktura təqdim edir və bu sənədin tərtib edildiyi və ya qarşı tərəfə təqdim olunduğu tarix xidmətlərin göstərildiyi tarix hesab edilir. Lakin bu sənəd mükəmməl olmaya bilər. Belə ki, hesab-faktura birtərəfli qaydada (icraçı tərəfindən) tərtib olunur və qarşı tərəfə (sifarişçiyə) ödəniş üçün təqdim edilir. Hesab faktura təktərəfli olaraq icraçı tərəfindən imza və möhürlə təsdiqlənir, qarşı (sifarişçi) tərəf üçün hesab-fakturada təsdiq üçün yer nəzərdə tutulmur və ya təsdiqlənmir. Çünki sənədin quruluşu və mahiyyətində sifarişçinin təsdiqi nəzərdə tutulmamışdır. Mübahisə olduğu halda belə, hesab-faktura, hansı ki, sifarişçinin imza və möhürü yoxdur, təsdiq üçün tutarlıdırmı? Əlbəttə ki, xeyr. Əslində, hesab-faktura sonuncu hesablaşmanı müəyyən edən, yəni hazırkı tarixə yerinə yetirilən öhdəliklər üzrə borcları əks etdirən yekun sənəd rolunu oynayır.

Xidmətlərin həqiqi göstərilməsini təsdiq edən sənəd kimi isə aktın tərtib olunması məqsədəmüvafiqdir. Belə aktı «xidmətlərin göstərilməsi haqqında akt» və ya «xidmətlərin təhvil-təslim aktı» da adlandırmaq olar. Bir sözlə, xidmətlər haqqında hər hansı aktın tərtib olunması məsləhət görülür. Aktda göstərilən xidmətlərin sifarişçi tərəfindən qəbulu rəsmən təsdiqlənir.

Deməli, xidmətlər təqdim edən tərəfin (icraçı) aşağıdakı sənədləşmələri həyata keçirməsi tövsiyə olunur:

- Xidmətlərin göstərilməsi haqqında müqavilə tərtib edir və qarşı tərəfə təsdiq üçün təqdim edir. Müqavilədə xidmətin aydın başa düşülən tam adı, göstərildiyi yer, miqdarı, qiyməti, miqdarının ölçülməsi (hesablanması) qaydası, dəyərinin müəyyənləşdirilməsi qaydası, nəticələrinin nələrdən ibarət olması və onların təhvil-qəbul edilməsi forması kimi hansı sənədin tərtib olunması (akt), ödənişlərin aparılması vaxtı və forması əks etdirilməlidir. Burada ən maraqlı məqam xidmətlərin ölçülməsi mexanizmidir. Xidmətin xarakterinə uyğun olaraq onun ölçü vahidinin, miqdarının və qiymətinin təyin edilməsi daha vacib məsələdir.
- Xidmətlərin göstərilməsi başa çatdıqdan sonra xidmətlərin göstərilməsi haqqında akt tərtib olunur və qarşı tərəfə təsdiq üçün təqdim edilir. Aktın sifarişçi tərəfindən imzalandığı tarix xidmətlərin göstərildiyi və ya qəbul edildiyi tarix hesab olunur, həmçinin gəlirin tanındığı (debitor borcun yarandığı) və vergi tutulan vaxt müəyyən edilir.
- Xidmətlər təqdim edən tərəf (icraçı) ƏDV ödəyicisi olduğu halda, qanunvericiliklə müəyyən olunmuş hallarda sifarişçi tərəfə elektron vergi hesab-faktura göndərilir.
- Ehtiyac yaranarsa və ya müqavilədə nəzərdə tutularsa, xidmət haqqının və ya avansın alınması üçün qarşı tərəfə hesab-faktura təqdim edilir. Hesab-fakturada pulun ödənilməsi tələb olunan bank hesabları və xəzinələr barədə məlumatlar əks etdirilir. Hesab-faktura tərtib edilməsi nəzərdə tutlmadığı halda, xidmət haqqının və ya avansın alınması üçün müqavilə əsas götürülə bilər.

Yuxarıda göstərilən tövsiyələr sadə xidmət əməliyyatları üçün nəzərdə tutulub. Lakin uzunmüddətli, irimiqyaslı və mürəkkəb xarakterli xidmətlərin göstərilməsində əlavə sənədləşmələr də həyata keçirilə bilər. İstənilən halda, içraçı sifarişçinin imza və möhürü ilə təsdiq olunmuş sənədləşməyə üstünlük verməlidir.

## vergi təqvimi

| İYUN | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | **7** |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | **14** |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | **21** |
| **22** | 23 | 24 | 25 | 26 | 27 | **28** |
| 29 | 30 | 31 | | | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

22 iyun - «(1-1)», «3», «4», «8», «10.1», «10.2» və «10.3».

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

beynəlxalq panoram

# Gürcüstanda vergi yoxlamalarının müddəti azaldılacaq

*Dövlət Gəlirlər Xidməti vergi yoxlamalarının müddətlərini azaltmağa imkan verən normaların hazırlanması üzərində işə başlayıb. Gürcüstanın Baş naziri İrakli Qaribaşvili yoxlama prosedurlarının maksimum sadələşdirilməsinin zəruriliyini vurğulayıb.*

Parlamentin maliyyə-büdcə komitəsinin rəhbəri Nodar Ebanoidze bildirib ki, uzunmüddətli vergi yoxlamaları biznesə xeyli narahatlıq yaradır və bu məsələ nizama salınmalıdır. «Yoxlamaların keçirilməsini nizama salan yeni sənədin layihəsi yay aylarına qədər parlamentin müzakirəsinə çıxarılacaq», - deyə o bildirib.

Maliyyə Nazirliyi Beynəlxalq Valyuta Fondunun mütəxəssisləri ilə birgə auditin aparılması sisteminin təkmilləşdirilməsi layihəsi üzərində işləyir. Bu layihə yoxlamaların keçirilməsi müddətinin azaldılmasına imkan verəcək. Bundan başqa, Gəlirlər Xidməti sahəvi yoxlamalar sisteminə keçməyi planlaşdırır.

Qeyd edilməlidir ki, son zamanlar Gürcüstanda vergi yoxlamalarının keçirilməsi müddətinin azaldılması və yoxlama prosedurlarının sadələşdirilməsinin zəruriliyi ilə bağlı biznes dairələrinin müraciətləri intensiv hal almışdı.



# İngiltərə futbol klubları vergidən yayınmaqda şübhəli bilinir

*Britaniyanın «The Guardian» nəşri «Tax Justice Network» şirkəti ilə birgə çirkli pulların yuyulması və saxta maliyyə işləri ilə əlaqəsi olan ingilis futbol klubları barəsində araşdırma aparıb.*

Tədqiqata premyer-liqada, eləcə də daxili çempionatın birinci və ikinci liqalarında oynayan 92 komanda cəlb olunub. Araşdırma zamanı məlum olub ki, futbol klublarından hər üçüncüsü offşorlarda qeydiyyatdan keçmiş əcnəbi sahibkarlara aiddir. Futbol klublarının belə mülkiyyət strukturu onların sahiblərinin vergi ödənişlərindən yayınması üçün istifadə edilir.

Araşdırmanın nəticələri ilə bağlı hesabatda klub sahiblərinə qarşı heç bir konkret ittiham yoxdur, lakin qeyd edilir ki, komandanın satışı zamanı vergilərdən yayınmaq üçün böyük potensial mövcuddur.

«Offşorlarda qeydiyyatdan keçmiş saxta kompaniyaların adına milyardlarla dəyəri olan aktivlərin rəsmiləşdirilməsi Böyük Britaniyada vergidən yayınma riskinin mövcud olduğunu göstərir», - «Tax Justice Network» hesabatının müəllifi Corc Terner bildirib, - bu vəziyyət öz sevimli komandalarına çoxlu vaxt, pul və emosiya sərf edən azarkeşlərdə böyük narahatlığa səbəb olmalıdır. Futbol sadəcə biznes deyil, offşor şirkətlərin milli komandalarımızın sahibliyində yeri olmamalıdır».

Araşdırmanın şübhəli siyahısına 28 futbol klubu düşüb. Onların arasında «Arsenal», «Aston Villa», «Lester», «Liverpul», «Mançester Siti», «Mançester Yunayted», «Kuinz Reyndjers», «Sanderlend» və «Tottenxem» kimi komandalar var.

# Moldovada yol vergisi bir neçə dəfə artacaq

*Hökumət maliyyə çatışmazlığı səbəbindən ölkənin yol şəbəkəsinin ağır vəziyyətə düşməsindən narahatdır.*

Respublikanın avtomobil yollarının maliyyələşdirilməsi həcmlərinin artımı məqsədilə hökumət yollardan istifadə ilə bağlı nəqliyyat vasitələri üçün ödəmələrin 50% artımı haqqında qanunu qəbul etməyə hazırlaşır. İlkin hesablamalara əsasən, bu, təxminən 380 milyon ley (100 ley = 5,5 manat) gəlir gətirəcək.

Qeyd etmək lazımdır ki, bu vəsaitin böyük bir hissəsi (296 milyon ley) avtomobil yollarından istifadə üçün ödəmələrin artımı hesabına yığılacaq. 50 milyon ley sürücülər tərəfindən yol buraxılışlarının əldə edilməsindən, 9 milyon ley Moldova ərazisi vasitəsilə beynəlxalq daşınmalara verilən icazələrdən, 15 milyon ley isə digər yol yığımlarından daxil olacaq.

Xarici ölkələrin təcrübəsi

# Çin Xalq Respublikasının vergi sistemi: *fiziki şəxslərin gəlir vergisi*

Ölkədə fiziki şəxslərin gəlir vergisi «Fiziki şəxslərin gəlir vergisi haqqında» Qanunla tənzimlənir. Çinlilər və xarici fiziki şəxslər fiziki şəxslərin gəlir vergisinin ödəyiciləridir. Aşağıdakı şəxslər vergi ödəyiciləri hesab olunur:

- Çində daimi yaşayan;
- bütün il boyu Çində yaşayan; və ya
- Çin mənbələrindən gəlir əldə edənlər.

Fiziki şəxslərin rezidentliyi, əsasən, Çində fiziki mövcudluq və ya daimi yaşayış yerinin olması ilə müəyyən edilir. Müəyyən hallarda Çində yaşamaq hüququnun olması da nəzərə alınır. Daimi yaşayış yeri Çin olan Çin vətəndaşları vergi məqsədləri üçün rezident hesab olunurlar. Hər hansı şəxs yaşadığı yer üzrə qeydiyyat, ailə və ya iqtisadi maraqları səbəbilə Çində yaşayırsa, onun daimi yaşayış yeri Çin hesab olunur. Təhsil, iş, peşə, ailə ziyarəti və ya turist kimi müvəqqəti olaraq Çindən kənarda yaşayırsa və ölkəyə qayıtmağa məcburdursa, onun da daimi yaşayış yeri Çin hesab olunur.

Xarici vətəndaşlar, həmçinin Honq Konq və Makaodan olan şəxslər daimi yaşayış yeri üzrə deyil, rezidentliyi üzrə vergiyə cəlb olunurlar. Ümumilikdə, xarici vətəndaş bir ildən artıq müddətdə (təqvim ili ərzində 365 gün) Çində olduqda rezident hesab olunur. Rezidentlər kapital gəlirləri də daxil olmaqla ümumdünya gəlirləri üzrə vergiyə cəlb olunurlar. Bununla yanaşı, Çində qalma müddətlərindən asılı olaraq, emiqrantlara münasibətdə xüsusi qaydalar tətbiq edilir.

Fiziki şəxslərin gəlir vergisi sistemi mahiyyətcə diferensialdır. Sadalanan gəlirlərin yalnız müəyyən növləri vergiyə cəlb olunur, gəlirin hər kateqoriyası ayrı-ayrılıqda hesablanır, müxtəlif kateqoriyalardan olan gəlirlər isə toplanmır. Gəlirin bəzi kateqoriyaları proqressiv dərəcələrlə, digərləri isə vahid dərəcə ilə vergiyə cəlb olunur.

Ölkədə vergiyə cəlb olunan gəlirin 11 növü mövcuddur ki, buraya muzdlu işdən gəlir və əməkhaqqı, xidmət və ya əməyin kompensasiyası, sahibkarların biznes gəlirləri və gəlirin qanunla müəyyən edilmiş digər növləri daxildir.

Vergiyə cəlb olunan gəlir aylıq əsasda və ya birdəfəlik ödəmə əsasında hesablanır. Aylıq əsasda ödəmə muzdlu işdən gəlir, əməkhaqqı və Çin vətəndaşlarının fərdi xidmət və müqavilə əsasında gördükləri iş və əmlakın icarəsindən əldə etdikləri gəlirlərə tətbiq olunur. Birdəfəlik ödəmə isə gəlirin digər bütün növlərinə tətbiq edilir.

***Dərəcələr:*** 1 sentyabr 2011-ci ildən muzdlu işdən gəlir və əməkhaqqına tətbiq edilən vergi dərəcələri aşağıdakı kimidir:

| **Vergiyə cəlb olunan aylıq gəlir** *(Çin yuanı ilə)* | **Marjinal vergi dərəcəsi** *(faizlə)* |
|---|---|
| 1500-dək | 3 |
| 1501-4500 | 10 |
| 4501-9000 | 20 |
| 9001-35000 | 25 |
| 35001-55000 | 30 |
| 55001-80000 | 35 |
| 80000-dən çox | 45 |

1 sentyabr 2011-ci ildən fərdi sənaye və kommersiya təsərrüfatlarına, hüquqi şəxs yaratmayan digər sahibkarlıq subyektlərinin və tərəfdaşlıqların sahibkarlıq və istehsal fəaliyyətindən əldə etdikləri gəlirlərə aşağıdakı vergi dərəcələri tətbiq olunur:

| **Vergiyə cəlb olunan illik gəlir** *(Çin yuanı ilə)* | **Vergi dərəcəsi** *(faizlə)* |
|---|---|
| 15000-dək | 5 |
| 15001-30000 | 10 |
| 30001-60000 | 20 |
| 60001-100000 | 30 |
| 100000-dən çox olduqda | 35 |

Fərdi xidmətlərdən əldə edilən gəlirlərin 20.000 yuandan çox olan hissəsi aşağıdakı dərəcələrlə vergiyə cəlb olunur:

| **Hər ödəmə üzrə vergiyə cəlb olunan gəlir** *(Çin yuanı ilə)* | **Vergi dərəcəsi** *(faizlə)* |
|---|---|
| 20000-dək olduqda | 20 |
| 20001-50000 | 30 |
| 50000-dən çox | 40 |

Ümumiyyətlə, gəlirlərin müəyyən növləri üzrə çıxılmalar tətbiq edilir. Muzdlu işdən gəlir əldə edilərkən yaranan zərər və xərclər gəlirdən çıxılmır. Bunun əvəzində vergiyə cəlb olunan gəlir hesablanarkən standart aylıq güzəştlər tətbiq edilir. Çində göstərilmiş şəxsi xidmətlərə görə ödənilən haqların 20%-i xərc şəklində gəlirdən çıxılır. Şəxsi xidmətlərə görə ödənilən haqq dedikdə dizayn, dekor, quraşdırma, tərtibat, sınaq, tibbi müalicə, hüquq praktikası, mühasibat, konsultasiya, mühazirə, xəbər çatdırma, yayım, şərh, redaktə, yazı və rəngləmə, heykəltəraşlıq, kinematoqrafiya, səsyazma, videoyazı, tamaşa, reklam, sərgi, texniki xidmətlər, vasitəçilik xidmətləri, agent, broker və digər xidmətlərin göstərilməsinə görə alınan haqlar başa düşülür.

Vergiyə cəlb olunan royalti müəyyən edilərkən fərdi şəxs tərəfindən agent və ya vasitəçilərə texnologiyaların köçürülməsi üçün ödənilən məbləğlər gəlirdən çıxılır.

İşəgötürən tərəfindən işçilərin muzdlu işdən əməkhaqqı və gəlirdən çıxılmaları hesablanarkən həmin ayda əldə etdikləri natura şəklində gəlirlər nəzərə alınır.

***Güzəştlər:*** Vergiyə cəlb olunan gəlir hesablanarkən 570 ABŞ dolları məbləği ekvivalentində standart aylıq güzəşt tətbiq edilir. Aşağıda qeyd olunan fiziki şəxslərə münasibətdə güzəştin məbləği 780 ABŞ dollarınadək artırıla bilər:

- Çində yerləşən xarici investisiyalı müəssisə və ya xarici şirkətlərdə çalışan əcnəbi işçilər;
- Çində yerləşən müəssisə, təşkilat, sosial təşkilat və dövlət orqanlarında Çin tərəfinin dəvəti ilə fəaliyyət göstərən xarici ekspertlər;
- Çinin rezidenti olan və digər ölkədəki vəzifə və ya muzdlu işdən gəlir və əməkhaqqı əldə edən fiziki şəxslər;
- Maliyyə Nazirliyi tərəfindən müəyyən olunan digər şəxslər.

**Davamı növbəti sayımızda**

*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Osmanlı dövlətinin 10-cu padşahı Sultan Süleyman Qanuninin həyat yoldaşı və sultan II Səlimin anasının adı; 2.«Uşaqlığın son gecəsi» filmində (1968) Rüstəm obrazını canlandıran aktyorun adı; 3.Muğam, təsnif və Azərbaycan xalq mahnılarının mahir ifaçısılardan biri. Azərbaycan radiosunun və Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş bir sıra partiyaları ifa etmiş xanəndə, Azərbaycanın əməkdar artistinin adı; 4.Şirkət və ya təşkilatlar ittifaqı, birləşmə; 5.İordaniyanın paytaxtı; 6.XVIII əsrin ortalarında Cənubi Azərbaycanın qərbində yerləşmiş ən nüfuzlu xanlıqlardan biri; 9.Qədim Misir əfsanəsinə görə, külək və bərəkət (məhsuldarlıq) tanrısı; 13.Vaxt, zaman, an; 15.Feodal Yaponiyasında imtiyazlı hərbi zadəgan silkinə mənsub adam, hərbçi, cəsur döyüşçü; 16.Eramızın 117-138-ci illərində hakimiyyətdə olmuş XIV Roma imperatoru; 17.Azan vermək üçün məscidlərin yanında və ya üstündə ucalan qüllə, qadın adı; 18.Bir şeyi əldə etmək, yaxud bir işi həyata keçirmək üçün lazım olan şey, üsul, yol, alət və s.; 20.Pişiklər fəsiləsinin panter cinsinə aid heyvan növü; 21.İnsanın könüllü surətdə, məcbur edilmədən məşğul olduğu və böyük zövq aldığı fəaliyyət. **Soldan sağa:** 1.«Alma almaya bənzər» filmində (1975) baş qəhrəman - Nadir baba obrazını canlandıran aktyorun adı; 5.Ölkəmizdə ali təhsil müəssisəsinin qısaldılmış adı; 7.Şərab növü; 8.Müsəlmanlarda camaat namazına başçılıq edən, habelə bir məhəllədə nikah, ölüm və s. dini işlərə baxan ruhani; 10.Yazıçı, publisist, geneoloq, Avrasiya Yazıçılar, Azərbaycan Jurnalistlər birliklərinin, Azərbaycan Tarixi Şəcərə cəmiyyətinin üzvünün adı; 11.Yunan filosofu, neoplatomizmin sələfisi; 12.«Səhər» filmində (1960) Mirəli obrazını canlandıran aktyorun adı; 14.Krit adasında qədim şəhər; 19.Ayaq üçün nəzərdə tutulan geyim növü; 21.Ərəb əlifbasında müxftəlif hərflərin üstündə xüsusi tələffüz bildirən işarə. Həm də kişi adıdır; 22.Latviyanın şimal-qərbində çay; 23.Avstraliya İttifaqının paytaxtı; 24.Meyvə, bu meyvənin şərəfinə hər il Göyçay rayonunda festival keçirilir; 25.Hər hansı bir xalqın, dövrün və ya bütün bəşəriyyətin yaratdığı elmi, bədii, fəlsəfi və s. əsərlərin məcmusu.



*«Alma almaya bənzər» filmindən epizod*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Sineva; 2.Antiqua; 3.Aqraf; 4.Truppa; 5.«Kirpi»; 6.Relikt; 9.Əniq; 13.Kətə; 15.Araxçın; 16.Qrafin; 17.Ştraus *(İohann)*; 18.Pleyer; 20.Rimma *(Məmmədova)*; 21.Atari. **Coldan cağa:** 1.Stalaktit; 5.Kür; 7.Notarius; 8.Ural; 10.Vaqif *(Ucatay)*; 11.Pontiak; 12.Banko; 14.Oqtay *(Kazımov)*; 19.Raritet; 21.Asaul; 22.Foma *(Akvinalı)*; 23.Bazarçay; 24.Nea; 25.Missioner.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev *anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:** Məti Osmanoğlu *redaksiya@vergiler.az*

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89
012 403 87 95
(faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14000**

idman

# Azərbaycan idmançıları ümidləri doğruldurlar

## *Birinci Avropa Oyunlarının ilk günlərindən təmsilçilərimiz inamla mübarizə aparırlar*

Baku 2015
1st EUROPEAN GAMES

*İyunun 13-də «Bakı-2015» I Avropa Oyunlarına start verilib. Elə həmin gün bu mötəbər idman tədbirinin ilk medalçılarının adları məlum olub.*

Qadınlar arasında dağ velosipedi üzrə yarışlarda fəxri kürsünün ən yüksək pilləsinə qalxan İsveçrə təmsilçisi Neff Yolanda Avropa Oyunlarının ilk qalibi kimi adını tarixə yazdırıb. Bu yarışda daha bir isveçrəli - Kathrin Stirneman ikinci olub. İlk üçlüyü isə Polşa təmsilçisi Maja Vloszçovska tamamlayıb.

İyunun 13-də birinci Avropa Oyunlarında karateçilər mübarizəyə qoşulublar. «Kristal Zal»da təşkil edilən ilk yarış günündə 6 dəst medal öz sahibini tapıb. 55 kq çəki dərəcəsində kumite yarışında yarımfinala qədər inamla irəliləyən 22 yaşlı karateçi bu mərhələdə fransız Emili Toya məğlub olaraq, bürünc medal uğrunda mübarizə aparıb. İspaniyalı Kristina Qarsiya Ferrer üzərində 5:2 hesablı qələbə qazanan təmsilçimiz Avropa Oyunlarında medal qazanan ilk Azərbaycan idmançısı olub.

İlk yarış günündə 60 kq çəkidə tatamiyə çıxan daha bir karateçimiz - Firdovsi Fərzəliyev qrup yarışlarında bütün rəqiblərini üstələyərək, finala gedən yolda digər qrupun ikincisi moldovalı Emin Pavlovu da məğlub edib. Finalda qrup mərhələsində məğlub etdiyi Mareska ilə yenidən qarşı-qarşıya gələn həmyerlimiz bu dəfə də rəqibinə heç bir şans verməyib - 4:0. Beləliklə, Azərbaycan I Avropa Oyunlarında ilk qızıl medalını qazanıb. 67 kq çəkidə karate yığmamızın üzvü Niyazi Əliyev isə bürünc medal qazanıb.

Karate üzrə 75 kq çəki dərəcəsində Azərbaycanı təmsil edən yığmamızın lideri Rafael Ağayev bütün rəqiblərini məğlub edərək Azərbaycana növbəti qızıl medal qazandırıb. İyunun 14-də davam etdirilən yarışlarda isə Azərbaycan yığmasının üzvü İrina Zaretska millimizin aktivinə daha bir qızıl medal əlavə edib. Digər karateçimiz Ayxan Mamayev də 84 kq çəkidə qızıl medala sahib olub.

İlk Avropa Oyunları çərçivəsində güləş yarışları iyunun 13-də start götürüb. İlk olaraq döşək üzərinə 59, 71, 80 və 98 kq çəki dərəcəsində yunan-Roma güləşçiləri çıxıblar. 59 kq-da mübarizə aparan Elman Muxtarov yarımfinalda Rusiya təmsilçisinə uduzsa da, bürünc medal uğrunda görüşdə Ermənistan idmançısı Roman Amoyanı 9:1 hesabı ilə məğlub edərək üçüncü yerə sahib olub.

71 kq çəkidə təmsilçimiz Rəsul Çunayev bütün rəqibləri üzərində inamla mübarizə apararaq güləş yarışlarında Azərbaycan yığmasına ilk qızıl medalı qazandırıb. 80 kq-da mübarizə aparan Rafiq Hüseynov yalnız finalda güclü Rusiya idmançısı Yevgeni Saleyevə məğlub olaraq gümüş medala sahib olub. 98 kq çəkidə gənc güləşçimiz Orxan Nuriyev isə yarışı beşinci sırada tamamlayıb.

İkinci yarış günündə döşək üzərinə 66, 75, 85 və 130 kq çəki dərəcəsində yunan-Roma güləşçiləri çıxıblar. Mübarizəyə təsnifat mərhələsindən qoşulan Həsən Əliyev (66 kq) yarımfinalda uduzsa da, bürünc medal uğrunda qələbə qazanaraq üçüncü olub.

75 kq çəkidə mübarizə aparan Elvin Mürsəliyev bütün görüşlərini inamla başa vurub və komandamıza ikinci qızıl medalı qazandırıb.

130 kq-da təmsilçimiz Sabah Şəriəti də finala qədər bütün rəqiblərindən üstün olub. Həlledici görüşdə Türkiyə idmançısı Rıza Kayaalpla gərgin keçən görüşdə məğlub olan təmsilçimiz Avropa Oyunlarını gümüş medalla başa vurub.

Üçüncü yarış günündə isə 48, 55, 60 və 69 kq çəki dərəcəsində qadın güləşçilər mübarizə aparıblar. 48 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz Mariya Stadnik bütün rəqibləri üzərində inamlı qələbə qazanaraq finala yüksəlib. Həlledici qarşılaşmada da rəqibinə heç bir şans verməyən təmsilçimiz görüşü vaxtından əvvəl qələbə ilə başa vuraraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 55 kq-da mübarizə aparan Nataliya Sinişin isə bürünc medalla kifayətlənib.

İyunun 16-da, dördüncü yarış günündə 53, 58, 63 və 75 kq çəkidə qadın güləşçilər mübarizə aparıblar. 53 kq çəki dərəcəsində finala qədər irəliləyən güləşçimiz Anjela Doroqan həlledici qarşılaşmada Polşa təmsilçisi Mersedes Denesi məğlub edərək, ölkəmizə daha bir qızıl medal qazandırıb.







mozaika

texnologiya

## Sudan kompüter prosessoru

*ABŞ-ın Stenford Universitetinin alimləri ferromaqnit maye və hidrodinamika sahəsindəki kəşflərdən istifadə edərək yeni növ kompüter prosessoru hazırlayıblar.*

Ənənəvi prosessorlardan fərqli olaraq, yeni qurğuda məlumatların ötürülməsi üçün elektrik əvəzinə maqnit nanohissəciklərin əlavə olunduğu dövr edən maqnit sahəsindəki su damcılarından istifadə olunur. «İ» və «T» hərfləri formasında hərəkət edən metal elementlər sahənin quruluşuna təsir edərək mayeni hərəkət istiqamətinə yönəldir.

Qurğu adi kompüterlərin apardığı hesablama əməliyyatlarını aşağı sürətlə yerinə yetirə bilir. Alimlər bildiriblər ki, onlar ənənəvi prosessorlara rəqib yaratmaq və ondan mətn redaktorları kimi müxtəlif proqramların işə salınması üçün istifadə etmək niyyətində olmayıblar.

Mütəxəssislər bu kəşfi maddi substansiyalara yüksək dəqiqliklə nəzarət edən və onlarla müxtəlif manipulyasiyalar həyata keçirən hesablama maşınlarının yeni sinfi kimi dəyərləndiriblər. Bu qurğuların biologiya, kimya və bir çox digər sahələrdə faydalı olacağı bildirilib.



madaniyyat

## 7 yaşlı azərbaycanlının əl işi bütün Amerikanı dolaşır

ABŞ-da fəaliyyət göstərən «AzeriAmerika» diaspor təşkilatı «Bakı 2015» birinci Avropa Oyunlarına həsr olunmuş poçt markası hazırlayıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, markanın üzərində Bakının simvoluna çevrilmiş «Alov qüllələri»nin şəkli əks olunub və ingilis dilində «Bakı 2015 1-ci Avropa Oyunları» sözləri yazılıb. Markanın müəllifi ABŞ-da yaşayan 7 yaşlı Mikayıl Əliyevdir.

Qeyd edək ki, «AzəriAmerika» təşkilatı 2009-cu ildə ABŞ-ın Konnektikut ştatının Farmington şəhərində təsis edilib. Təşkilat 2009-cu ildən ABŞ-Azərbaycan, ABŞ-Kanada əlaqələrinə dair ən son xəbərləri azeriamerika.com saytı vasitəsilə yayımlayır.

Təşkilatın təsis olunmasında başlıca məqsəd Azərbaycan mədəniyyətinin, incəsənətinin, tarixinin, dilinin, adət-ənənəsinin, həyat tərzinin və qabaqcıl siyasətinin təbliğ olunmasıdır.




araşdırma

## Səhərlər beynin həcmi böyük olur

Kanadadakı Montreal Nevrologiya İnstitutundan olan alimlərin araşdırması ayaqlar kimi beynin də həcminin səhər və axşamlar dəyişdiyini sübut edib.

Araşdırma beynin həcminin səhərlər daha böyük olduğunu və gün ərzində kiçildiyini ortaya çıxarıb. Elm adamları bundan əvvəl aparılmış geniş bir araşdırmadan faydalanaraq 3 min 300-ü MS, 6 min 100-ü isə alsqeymer xəstəsi olmaq üzrə təxminən 10 min adamın beyin görüntülərini səhər, günortadan sonra və axşamlar araşdırıb. Səhər beynin günortadakından daha böyük olduğunu təyin edən elm adamları belə vəziyyətin süngərə bənzəyən bu orqanın üfüqi vəziyyətdə maye dövranının daha yaxşı olması sayəsində gecə boyunca kifayət qədər «nəmli» qalmasından qaynaqlandığını irəli sürüblər.

## Ayaq üstə durmaq norması

Britaniya alimlərinin qənaətinə görə, ofis işçiləri sağlamlıqlarını qorumaq üçün iş günü ərzində minimum iki saat ayaq üstə durmalıdırlar.

Oturaq həyat tərzinin insan sağlamlığına təsirinin təhlili İngiltərə Səhiyyə Departamentinin (Public Health England) sifarişi ilə keçirilib. Nümunə kimi kompüter arxasında oturaraq işləyən şirkət əməkdaşlarının günün nizam qaydası götürülüb.

Həkimlər qərara gəliblər ki, uzun müddət oturmaq ürək-damar xəstəlikləri, diabet, xərçəng, onurğa sütunu və həzm problemləri kimi ciddi fəsadlara yol aça bilər. Bununla əlaqədar tədqiqatçılar oturaq həyat tərzinin pis nəticələrini minimuma endirmək üçün düz qamətlə işləməyi və səkkiz saatlıq iş günü ərzində ayaq üstə ən azı iki saat keçirməyi tövsiyə edirlər. Mütəxəssislər bu tövsiyənin yerinə yetirilməsi üçün mümkün üsullar kimi liftdən istifadədən imtina edərək pilləkənlə qalxmağa, telefonla danışarkən stuldan durmağa, eləcə də imkan daxilində iş yoldaşlarına elektron poçtdan istifadə etmədən birbaşa müraciət etməyə çağırırlar.

Tədqiqatda o da qeyd olunur ki, Skandinaviya ölkələrində iş yerlərinin 90 faizi əməkdaşa noutbuku və ya kompüteri uyğun hündürlüyə qaldırmağa və ayaq üstə işləməyə imkan verən xüsusi avadanlıqla təchiz edilib. Böyük Britaniyada bu göstərici cəmi 1 faizə bərabərdir.

eksperiment

## «Ağacın yaddaşı»

*İsveçrədəki Friburq Təbii Tarix Muzeyində Azərbaycan təbiətinə, o cümlədən Hirkan Milli Parkının zəngin fauna və florasına həsr olunmuş «Ağacın yaddaşı» adlı sərgi açılıb.*

Açılış mərasimində rəsmi qonaq qismində Friburq Kantonu hökumətinin sədri Jan-Pyer Siqqen, Friburq Kantonu Parlamentinin sədri David Bonny, Azərbaycan Respublikasının İsveçrə Konfederasiyasındakı səfiri Əkrəm Zeynallı, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Botanika İnstitutunun direktoru Validə Əlizadə iştirak ediblər.

Tədbirdə çıxış edən Təbii Tarix Muzeyinin direktoru Piter Vandeler AMEA-nın Botanika İnstitutu ilə əməkdaşlığın yaranması tarixindən danışaraq sərginin İsveçrə tədqiqatçıları və ictimaiyyəti üçün əhəmiyyətini qeyd edib, çox qədim dövrlərdə Friburqda mövcud olmuş bitki növlərinə Azərbaycanda rast gəlinməsinin onlar üçün maraqlı olduğunu vurğulayıb.

Friburq Kantonu hökumətinin sədri Jan-Pyer Siqqen isə gənc nəslin təbiəti yaxından duymasında bu cür tədbirlərin əhəmiyyətindən danışıb, xüsusilə iqlim dəyişikliyinin baş verdiyi indiki dövrdə ətraf mühiti qorumağın vacibliyini diqqətə çatdırıb.

Açılışdan sonra qonaqlar sərgiyə baxıblar. Onlara Azərbaycanın füsunkar təbiətini əks etdirən eksponatlar barədə ətraflı məlumat verilib.

Sərgi 2016-cı il yanvarın 1-dək davam edəcək.

**Müdriklər deyib ki...**

*«Bir yaxşı davranış dünyadakı bütün gözəl sözlərdən daha təsirlidir».*

*Endrü Marvell (1621-1678)*

